www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 8-14 iyul 2026-cı il Çərşənbə № 26 (8875) Qiyməti 1 manat

**Xəbər**

## Ev qiymətinə maşın nömrəsini kimlər alır?

yazısı səh.13-də

# NAZİRLİKLƏRDƏ YENİ MÜAVİN POSTLARININ PƏRDƏARXASI

Bu qərarlar hökumətin dövlət idarəçiliyinin daha çevik və funksional modelə keçid siyasətinin davamı kimi qiymətləndirilir yazısı səh.3-də



## Rusiyadakı azərbaycanlılara “çamadan xəbərdarlığı”

Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü yeni qanunu MDB ölkələrinə mesaj hesab edir yazısı səh.5-də

**Ölkə**

### İranın Qafqazda “jandarm olmaq” iddiası



Bu ssenari regiona və Zəngəzur dəhlizinə nə vəd edir?

yazısı səh.9-da

### Erməni müxalifətinin iki hədəfi - həm Bakı, həm İrəvan...

yazısı səh.8-də

### YAP-ın altı rayon təşkilatında sədr dəyişdi

yazısı səh.10-da

### Bakı-Tiflis qatarına bilet ucuzlaşdı

yazısı səh.2-də

### Ölkəmizdə ən çox qadınlar adını dəyişir

yazısı səh.3-də

### Orta Asiya Qafqaza niyə yaxınlaşır?

yazısı səh.9-da

### Bakı-Moskva qatarının “bəxti” açıla bilər

yazısı səh.12-də

### Keçid balları ilə bağlı açıqlamalar

yazısı səh.14-də

### Satışda olan gizli kameraların sirri

yazısı səh.13-də

### Qəbul imtahanlarını “dünyanın sonu” kimi görənlər...

yazısı səh.14-də

### Mühüm qanun layihələri parlamentin müzakirəsində

yazısı səh.11-də




### Azərbaycan yeni sülhyaratma əməliyyatlarında - generalın mesajı

yazısı səh.6-da



### Dəmir kimi adam - Rafael Fiziyevin həyat hekayəsi

yazısı səh.7-də




### Naxçıvanın yeni statusu erməniləri qorxuya saldı - hüquqşünasın şərhi

yazısı səh.4-də




## Generala yüksək vəzifə verildi

**Müdafiə Nazirliyində növbəti kadr təyinatı həyata keçirilib.**

Bakupost.az-ın əldə etdiyi məlumata görə, Müdafiə Nazirliyinin Əməliyyat Baş İdarəsinin rəisi, general-leytenant Azər Əliyev Baş Qərargah rəisinin müavini vəzifəsinə təyin olunub.

Qeyd edək ki, Azər Əliyev 2021-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Hərbi Akademiya rəisinin tədris üzrə müavini vəzifəsindən azad edilərək Müdafiə Nazirliyinin Əməliyyat Baş İdarəsinin rəisi təyin olunmuşdu.

## Azərbaycanlılar ən çox bu ölkənin vətəndaşları ilə evlənir



**Cari ilin ilk 5 ayı ərzində Ədliyyə Nazirliyinin qeydiyyat orqanları tərəfindən Azərbaycan Respublikası vətəndaşları ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər arasında 631 nikah qeydə alınıb.**

Bu barədə Ədliyyə Nazirliyindən məlumat verilib. Məlumata görə, həmin nikahlarda Azərbaycan Respublikası vətəndaşlarından 307-si qadın, 324-ü isə kişi olub. "Məlumat üçün bildiririk ki, nikahlar əsasən Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna və Özbəkistan vətəndaşları ilə qeydə alınıb. Müqayisə üçün qeyd edək ki, ötən ilin ilk 5 ayında isə 858 Azərbaycan Respublikası vətəndaşı əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərlə nikaha daxil olub", - deyə rəsmi məlumatda qeyd olunub.

## Yeni dələduzluq üsulu - DİN-dən xəbərdarlıq

**Sosial şəbəkələrdə dələduzluğun yeni növünə dair müzakirələ gedir. "Yeni Sabah" xəbər verir ki, fəndgirlər saxta bank köçürmə qəbzləri hazırlamağa başlayıblar. Onlar ödəniş etdiklərini göstərən "qəbz"i təqdim edir, daha sonra isə müxtəlif bəhanələrlə guya köçürülən məbləğin geri qaytarılmasını tələb edirlər.**

DİN-in Mətbuat Xidmətinin əməkdaşı polis baş leytenantı Elbrus İbrahimov bildirib ki, saxta bank köçürmə qəbzləri ilə insanları aldatmağa çalışanların sayı artıb: "Bu, sosial şəbəkələr və onlayn ticarət platformaları vasitəsilə edilir. Bu cür hallarda bəzi şəxslər bank köçürməsinə bənzər saxta qəbz hazırlayaraq satıcıya göndərir, ödəniş etdiklərini iddia edir və malı əldə etməyə çalışırlar. Bəzi hallarda isə guya artıq vəsaitin köçürüldüyünü bildirərək həmin məbləğin geri qaytarılmasını tələb edirlər".

Nazirlik rəsmisi qeyd edib ki, belə hallarla bağlı polis orqanlarına daxil olan müraciətlər qanunvericiliyin tələblərinə uyğun araşdırılır: "Dələduzluq əlamətləri müəyyən edildiyi hallarda, vurulmuş ziyanın məbləğindən asılı olmayaraq, əmələ hüquqi qiymət verilir. Vətəndaşlara tövsiyə edirik ki, yalnız göndərilən qəbzə əsaslanaraq malı və ya xidməti təhvil verməsinlər. Vəsaitin həqiqətən bank hesabına daxil olduğunu mobil tətbiq və ya bankdan əldə olunan rəsmi məlumat əsasında yoxladıqdan sonra əməliyyatı tamamlasınlar".

## Bağçalara qəbul myGov başladı

**Məktəbəqədər təhsil müəssisələrinə elektron növbələrin yaradılmasına başlanılıb. Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (MÜTDA) məlumat yayıb. Bakı şəhəri üzrə məktəbəqədər təhsil müəssisələrinə qəbul üçün elektron növbələr iyulun 9-u saat 11:00-dan aktiv olacaq. Elektron qəbul 2021 və 2022-ci il təvəllüdlü uşaqlar üçün saat 11:00, 2023, 2024 və 2025-ci il təvəllüdlü uşaqlar üçün saat 15:00-da başlayacaq.**

Bu il ilk dəfə olaraq qəbul prosesi myGov platforması üzərindən həyata keçiriləcək.

# Bakı-Tiflis qatarına bilet ucuzlaşdı



**İyulun 10-dan etibarən Bakı-Tiflis-Bakı beynəlxalq marşrutu üzrə hərəkət edən qatarların tərkibinə əlavə 3 ədəd yataq tipli vaqon (hazırda ölkədaxili marşrutda istifadə olunan standart+ sinif vaqonlar) qoşulacaq. Nəticədə hər reys üzrə 104 əlavə sərnişin yeri açılacaq və bir reys üzrə sərnişin yeri həzırkı 178-dən təqribən 60% artaraq 282-yə çatdırılacaq.**

Əlavə vaqonlara biletlər artıq satışa çıxarılıb. Bu vaqonlarda gediş haqqı hazırda istifadədə olan "Stadler" vaqonları üzrə biletlərin qiymətí ilə müqayisədə daha münasibdir. Belə ki, Bakı-Tiflis-Bakı marşrutu ilə gediş haqqı məsafədən asılı olaraq standart+ sinif üzrə 40,30 manatdan başlayır. Marşrut üzrə bir istiqamətə Bakıdan Tiflisə minimum gediş haqqı 65,20 manat, Yevlaxdan 53,30 manat, Gəncədən 49,30 manat, Ağstafadan isə 45,30 manatdır. Böyük Kəsikdən Tiflis vağzalı və Qardabani stansiyasına isə müvafiq olaraq 43,40 və 40,30 manat təşkil edir.

Xatırladaq ki, hazırda Bakıdan Tiflisə "Stadler" vaqonlarında komfort sinif üzrə minimum gediş haqqı 79,5 manat, Gəncədən isə 58,20 manatdır.

Beləliklə, son yenilik sayəsində daha çox sərnişinin Bakı-Tiflis-Bakı marşrutu ilə daha münasib qiymətə səfər etməsinə imkan yaranır.




## Naxçıvanda maaş problemi?

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti əməkdaşlarının iki aydan çoxdur maaş ala bilmədiyi bildirilir.**

Məlumata görə, maaş problemi nazirlərdən tutmuş texniki işçilərə qədər müxtəlif kateqoriyadan olan əməkdaşları əhatə edir. Bu haqda "Gündəlik Naxçıvan"a kabinetdəki mənbələr məlumat verib.

Məsələ ilə bağlı əslən Naxçıvandan olan jurnalist Heydər Oğuz saytımıza açıqlamasında bildirib ki, muxtar respublikanın maliyyə naziri öz vəzifəsinə icra etmir: "Naxçıvanda bütün dövlət qulluqçularının maaş problemi var. Təkcə Nazirlər Kabinetinin əməkdaşları yox, bir çox dövlət qurumunda aylardır maaşlar verilmir və gecikdirilir".

H.Oğuz əlavə edib ki, Naxçıvanın bir çox dövlət qurumlarında maliyyələşmə ilə bağlı problem var.

## Vüqar Məmmədov həbsdə qaldı



**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) "Hürriyyət" qəzeti və "Hürriyyət TV"də keçirdiyi əməliyyat zamanı saxlanılan baş redaktor Vüqar Məmmədovun cinayət işi üzrə məhkəmənin növbəti iclası keçirilib.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elmin Rüstəmovun sədrliyi ilə keçirilən prosesdə prokuror təqsirləndirilən şəxsə ittiham aktını elan edib.

Vüqar Məmmədov ittihamla özünü təqsirli bilməyib və onun sərbəst ifadəsi dinlənilib.

Müdafiə tərəfi Vüqar Məmmədov barədə seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilərək ev dustaqlığı ilə əvəz olunması barədə vəsatət təqdim etsə də, məhkəmə vəsatəti təmin etməyib.

Növbəti baxış iclası iyulun 27-nə təyin edilib.

Qeyd edək ki, Vüqar Məmmədov ötən il oktyabrın 29-da DTX-nin "Hürriyyət" qəzeti və "Hürriyyət TV"də keçirdiyi əməliyyat nəticəsində saxlanılıb. Məhkəmənin qərarı ilə Vüqar Məmmədov barəsində həbs-qətimkan tədbiri seçilib.

Ona Cinayət Məcəlləsinin 182.2.2-ci (Hədə-qorxu ilə tələb etmə təkrar törədildikdə) və 182.2.4-cü (Hədə-qorxu ilə tələb etmə, xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə) maddələri ilə yekun ittiham elan olunub.

## Maliyyə Nazirliyinin sabiq əməkdaşlarına hökm

**Auditorlar Palatasının mənimsəmədə təqsirləndirilən sabiq vəzifəli şəxsləri - Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov, həmin idarənin maliyyəçi-mühasibi Gövhər Əhmədova və Maliyyə və təşkilati-texniki təminat idarəsinin mühasibi Fəridə Novruzovanın cinayət işi üzrə məhkəmənin yekun prosesi keçirilib.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, Gövhər Əhmədova 5 il, Fəridə Abbasova isə 3 il müddətinə azadlıqdan məhrum edilib. G.Əhmədova məhkəmə zalında həbs olunub. F.Novruzovanın hamilə olduğu nəzərə alınıb, doğulacaq övladı 14 yaşına çatanadək hökmün təxirə salındığı bildirilib.

İş üzrə zərərçəkmiş şəxs kimi Auditorlar Palatası tanınıb. İttihama görə, 2018-ci ildən başlayaraq maliyyə hesablamaları, maliyyə uçotları, sığorta ödənişləri, vergi ödənişləri, mal-materialların siyahıllaşdırılması zamanı vəzifə səlahiyyətlərindən sui-istifadə edərək ödəniş cədvəllərində, illik hesabatlarda öz qohumları adına onların xəbəri olmadan "Azərbaycan Beynəlxalq Bankı"nda kart hesabı açılıb və həmin karta pul köçürülmələri edilib. Daha sonra həmin kartlara köçürülən ümumilikdə 717 min 311 manat məbləğ nağdlaşdırma yolu ilə mənimsənilib.

## Narkokuryerliyə görə 4 nəfər həbs olundu - biri qadındır

**Nəsimi rayonunda 70 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. DİN xəbər verir ki, narkokuryerliklə məşğul olmaqda şübhəli bilinən, əvvəllər məhkum olunmuş 51 yaşlı Ədalət Qədimovdan 22 kiloqram 210 qram marixuana, 44 yaşlı Elvin Əhmədovdan 29 kiloqram 770 qram marixuana, 39 yaşlı Günel Tağıyeva və tanışı, 45 yaşlı Aydın Qurbanovdan isə 18 kiloqram 615 qram marixuana aşkarlanıb.**

Son əməliyyatlar nəticəsində ümumilikdə 70 kiloqramdan artıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. Məhkəmənin qərarı ilə saxlanılan şəxslərin hər biri barəsində həbs-qətimkan tədbiri seçilib.

# Nazirliklərdə yeni müavin postlarının pərdəarxası

## Bu qərarlar hökumətin dövlət idarəçiliyinin daha çevik və funksional modelə keçid siyasətinin davamı kimi qiymətləndirilir



**Azərbaycanda dövlət idarəçiliyində aparılan struktur dəyişiklikləri davam edir. 2026-cı ildə Prezident İlham Əliyevin imzaladığı fərmanlarla daha iki nazirlikdə nazir müavinlərinin sayı artırılıb. Bununla da son aylarda rəhbər heyəti genişləndirilən nazirliklərin sayı artıb.**

Mart ayında qəbul edilən qərarla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində nazir müavinlərinin sayı 4-dən 5-ə çatdırılmışdı. Ardınca, 2 iyul tarixində imzalanan fərmanla Səhiyyə Nazirliyində də analoji dəyişiklik edildi və nazir müavinlərinin sayı 3-dən 4-ə yüksəldildi.

Bu qərarlar hökumətin dövlət idarəçiliyinin daha çevik və funksional modelə keçid siyasətinin davamı kimi qiymətləndirilir. Nazir müavinlərinin sayının artırılması təkcə kadr dəyişikliyi deyil, həm də dövlət idarəçiliyində prioritetlərin dəyişdiyini göstərən addım hesab olunur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi son illərdə ən çox funksiyası artan qurumlardan biridir. DOST xidmətlərinin genişlənməsi, məşğulluq proqramları, sosial ödənişlərin rəqəmsallaşdırılması, reabilitasiya və sosial xidmətlərin vahid sistemdə idarə olunması rəhbərlik səviyyəsində iş yükünü əhəmiyyətli dərəcədə artırıb. Bu baxımdan əlavə nazir müavini konkret istiqamətlərin daha effektiv koordinasiyasına xidmət edə bilər.

Səhiyyə Nazirliyində isə vəziyyət daha fərqlidir. Son illərdə icbari tibbi sığorta sistemi, səhiyyənin rəqəmsallaşdırılması, tibbi xidmətlərin keyfiyyətinə nəzarət və yeni islahat paketləri nazirliyin fəaliyyət dairəsini genişləndirib. Yeni müavin vəzifəsinin yaradılması bu sahələrin ayrıca kurasiya edilməsinə imkan verəcək. Ekspertlər hesab edirlər ki, bu cür qərarlar yaxın dövrdə digər iri dövlət qurumlarında da analoji struktur dəyişikliklərinin aparılacağının siqnalı ola bilər. Xüsusilə rəqəmsallaşma, sosial xidmətlər, səhiyyə və iqtisadi idarəetmə kimi istiqamətlərdə yeni səlahiyyət bölgüsünə ehtiyacın artdığı müşahidə olunur.

Bununla yanaşı, rəhbər heyətin genişləndirilməsi yalnız yeni vəzifələrin yaradılması demək deyil. Əsas məqsəd qərarların qəbulunu sürətləndirmək, məsuliyyət bölgüsünü dəqiqləşdirmək və islahatların icrasına nəzarəti gücləndirməkdir.

Son fərmanlar göstərir ki, hökumət idarəetmə sistemində institusional gücləndirmə xəttini davam etdirir və xüsusilə sosial siyasət ilə səhiyyə sektorunu növbəti mərhələnin əsas prioritetləri kimi nəzərdən keçirir.

Mövzu ilə bağlı **deputat, iqtisadçı alim Vüqar Bayramov** "Yeni Müsavat"a deyib ki, Azərbaycanda idarəetmə sistemində islahatların daha da dərinləşməsi müşahidə olunur: "Bir tərəfdən struktur və kadr islahatları genişləndirilir, digər tərəfdən isə rəqəmsal xidmətlərdən istifadə imkanları artırılır. Nəzərə alsaq ki, hazırda həm süni intellekt texnologiyalarının tətbiqi, həm də rəqəmsal həllərin genişləndirilməsi dövlətin iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən biri hesab olunur, bu sahədə atılan addımlar xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında vurğulanan əsas strateji məqamlardan biri də məhz dövlət xidmətlərinin elektronlaşdırılması və inteqrasiyası prosesinin ardıcıl şəkildə davam etdirilməsi, eyni zamanda qəbul edilmiş yol xəritəsinə uyğun olaraq konkret fəaliyyətlərin həyata keçirilməsidir. Bu yanaşma ölkədə rəqəmsal transformasiyanın sürətləndirilməsinə və dövlət idarəçiliyinin daha müasir prinsiplər əsasında formalaşdırılmasına xidmət edir. Xüsusilə nəzərə alsaq ki, həm təsdiq edilmiş yol xəritəsinə, həm də dövlət proqramlarına uyğun olaraq Azərbaycanda mərhələli şəkildə kağızsız hökumət modelinə keçid nəzərdə tutulur, bu istiqamətdə aparılan işlərin əhəmiyyəti daha da artır. Bu, o deməkdir ki, 2028-ci ilin iyun ayınadək ölkədə informasiya dövriyyəsinin tam elektronlaşdırılması, elektron sistemlərin daha geniş tətbiqi və kağız daşıyıcılardan istifadə səviyyəsinin minimuma endirilməsi istiqamətində mühüm nəticələrin əldə olunması planlaşdırılır. Nəticə etibarilə dövlət idarəçiliyində, xidmətlərin təqdim edilməsində və məlumat mübadiləsində elektron daşıyıcıların əsas platformaya çevrilməsi gözlənilir".

**Deputat qeyd edib ki, məhz bu kontekstdə yeni kadr təyinatları da xüsusi aktuallıq kəsb edir:** "Çünki yeni təyin olunan nazir müavinləri arasında süni intellekt və rəqəmsal inkişaf istiqamətlərinə cavabdeh olan şəxslər də yer alır. Bu isə göstərir ki, dövlət yalnız texnoloji transformasiyanı prioritet elan etmir, eyni zamanda həmin transformasiyanın idarə olunması üçün institusional və kadr potensialını da gücləndirir. Müasir çağırışlar və Azərbaycanda rəqəmsal inkişafla bağlı müəyyənləşdirilmiş strateji prioritetlər nəzərə alındıqda, kadr siyasətinin genişləndirilməsi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi zəruri addım kimi çıxış edir".

**V.Bayramov vurğulayıb ki, həm kadr, həm də struktur islahatları müasir tələblərə uyğun olaraq dövlət idarəetmə sisteminin daha çevik, daha effektiv və nəticəyönümlü fəaliyyət göstərməsinə imkan yaradacaq:** "Eyni zamanda bu dəyişikliklər rəqəmsal həllərdən daha geniş və səmərəli istifadə imkanlarını artıracaq, dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, qərar qəbuletmə prosesinin sürətlənməsinə və idarəetmədə şəffaflığın gücləndirilməsinə töhfə verəcək. Nəticə etibarilə bütün bunlar iqtisadi inkişafın sürətlənməsinə, biznes mühitinin daha da yaxşılaşdırılmasına və vətəndaşların dövlət xidmətlərinə əlçatanlığının yüksəlməsinə xidmət edəcək".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



# Həbs olunan rəisin məhkəməsi başlayır

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəbrayıl rayon şöbəsinin rəis müavini - Səfərbərlik hazırlığı və səfərbərlik bölməsinin rəisi vəzifəsini icra etmiş Mədətsoylu Niyam Etibar oğlunun qanunsuz əməlləri ilə bağlı keçirilən əməliyyat tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı tamamlanıb.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

İbtidai istintaqla Niyam Mədətsoylunun 2022-2026-cı illərdə sözügedən vəzifədə işləyərkən sağlamlıq vəziyyətlərinə görə əvvəllər növbəti həqiqi hərbi xidmətə çağırışdan azad edilmiş şəxslərin təkrar tibbi müayinədən yayındırılması və digər məqsədlərlə ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə olmaqla külli miqdarda pul vəsaitini təkrarən rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Niyam Mədətsoyluya Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311.3.2 və 311.3.3-cü (təkrarən külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilməklə barəsində istintaq orqanının vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs (əsas) və vəzifədən kənarlaşdırma (əlavə) qətimkan tədbirləri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.

# Mərdəkanda ata və 3 uşağı dənizdə batdı

**Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində ən yaxın sularda xilasetmə məntəqəsindən 2 km aralı, dənizdə nəzarətsiz ərazidə 4 nəfər batıb. Bildirilir ki, həyata keçirilən operativ xilasetmə əməliyyatı sayəsində vətəndaşlar - 1975-ci il təvəllüdlü Məmmədov Rasim Qəhrəman oğlu və 2016-cı il təvəllüdlü Məmmədzadə Aytən Rasim qızı xilas edilib.**

Axtarışlar nəticəsində dalğıclar tərəfindən 2005-ci il təvəllüdlü Məmmədov Raul Rasim oğlunun meyiti suda tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Hazırda suda batdığı ehtimal olunan digər vətəndaş - 2007-ci il təvəllüdlü Məmmədzadə Zeynəb Rasim qızının axtarışları davam etdirilir.



# Azərbaycanda ən çox qadınlar adını dəyişir

**2026-cı ilin 6 ayında 1213 nəfər adını, soyadını və ya ata adını dəyişdirib, 558 nəfərin isə soyadının sonluğu dəyişdirilib.**

Bu barədə Ədliyyə Nazirliyindən məlumat verilib.

Məlumata görə, ad, soyad və ata adı dəyişdirilən şəxslərdən 321-i kişi, 892-si isə qadın olub. Nazirlikdən verilən məlumatda qeyd olunub ki, adı dəyişdirilən şəxslərdən 22-si yetkinlik yaşına çatmayan şəxs olub. Onlardan 17-si kişi cinsinə mənsubdur.

"Bildirirlik ki, vətəndaşlar adlarını, soyadlarını və ata adlarını daha çox pis səslənməsi, yaxud şəxsi istəkləri, eləcə də ər-arvadın ümumi soyad daşımaq arzusu, habelə ərizə verəni tərbiyələndirən şəxsin soyadını qəbul etmək və ya övladlığa götürmənin rəsmiləşdirilməsi mümkün olmadıqda atalığın adı ilə ata adı daşımaq arzusu və digər səbəblərdən dəyişdirirlər", - deyə rəsmi məlumatda vurğulanıb.



# ABŞ senatoru İlham Əliyevin qəbulunda

**Prezident İlham Əliyev iyulun 7-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib.**

Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə ABŞ prezidenti seçilməsindən sonra əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bunun ölkələrimiz, eyni zamanda region üçün çox önəmli olduğunu deyib.

Dövlətimizin başçısı ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfərini məmnunluqla xatırladı, həmin səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının ikitərəfli əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev Donald Trampla şəxsi münasibətlərinin də yüksək səviyyədə olduğunu deyərək, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında onun xüsusi rol oynadığını vurğulayıb.

Stiv Deynsin ölkəmizə son səfərindən sonra tarixi hadisələrin baş verdiyini qeyd edən dövlətimizin başçısı Azərbaycan-ABŞ əlaqələrinin inkişafı istiqamətində göstərdiyi səylərə görə qonağa təşəkkürünü bildirib.

Senator Stiv Deyns də öz növbəsində son dövrlərdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini deyib, Azərbaycan Prezidentinin ötən ilin avqustunda Vaşinqtona səfərinin əlamətdar hadisə olduğunu vurğulayıb.

Qonaq eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi səviyyədə mühüm rolunu qeyd edib.

Stiv Deyns Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə əlaqədar nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Söhbət zamanı TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından əhəmiyyəti vurğulanıb, Azərbaycanla ABŞ Senatı arasında dialoqun möhkəmləndirilməsi və tərəfdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Naxçıvanın yeni statusu erməniləri qorxuya saldı

## İddia olunur ki, bu status yalnız Ermənistanın yeni konstitusiyasının qəbul edilməsi ilə müəyyən oluna bilər - hüquqşünasın şərhi




**Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyeyenin Azərbaycana səfəri zamanı Cənubi Qafqazda nəqliyyat, enerji və rəqəmsal bağlantının inkişafı üçün 200 milyon avroya qədər qrant ayrılacağı barədə dedikləri Ermənistanın bəzi dairələrində dolaşıq rəylər yaradıb. Lyeyenin Naxçıvan üzərindən dəmir yolu əlaqəsinin açılmasından da bəhs edib.**

Erməni mediası bu kontekstdə iddia edir ki, yolun açılması üçün Naxçıvanın statusunu dəqiqləşdirmək lazımdır. Bildirilir ki, Azərbaycanın Naxçıvan Konstitusiyasını dəyişdirməsi və Qars müqaviləsinə istinadı aradan qaldırması muxtar respublikanın statusunu aydınlaşdırmayıb. İddia olunur ki, bu status yalnız Ermənistanın yeni konstitusiyasının qəbul edilməsi ilə müəyyən edilə bilər. "Məhz buna görə də Bakı Ermənistan Konstitusiyasında dəyişikliklər tələb edir", - deyə iddiada bildirilir.

Yada salaq ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının Preambulası dəyişib. Muxtar Respublikanın Konstitusiyasının Preambula hissəsində qeyd edilib ki, Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulub. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilib. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. 1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü konstitusiyası qəbul edilib. Naxçıvan Muxtar Respublikasının bu konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində - referendumda qəbul edilən konstitusiyası təşkil edir. Yeni reaksiyada qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

Bəs ermənilərin Naxçıvanın statusu ilə bağlı yeni iddiasının məqsədi nədir?

**Tanınmış hüquqşünas Qulamhüseyn Əlibəyli** "Yeni Müsavat"a bildirdi ki, 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi statusunu tanıyırdı və onun üçüncü dövlətə verilməməsi prinsipini ehtiva edirdi: "Moskva və Qars beynəlxalq müqavilələrinin imzalanmasından əvvəlki illər bölgədə son dərəcə mürəkkəb və qarışıq, gərgin hərbi-siyasi və beynəlxalq şərait mövcud idi. 1918-1920-ci illərdə Naxçıvan vilayəti əvvəlcə İrəvan quberniyasının tərkibində qəza statusu ilə Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində mübahisəsiz ərazi olub, sonra ayrı-ayrı vaxtlarda qısa müddətə Türkiyənin, Böyük Britaniyanın, ABŞ-ın, daşnak Ermənistanının nəzarəti altında olub. Lakin Naxçıvan əhalisi Azərbaycanla bir yerdə olduğunu bildirərək Xalq Cümhuriyyəti hökumətinə müraciət edib. Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə Naxçıvanda general qubernatorluq yaradılıb. Ermənistanın daşnak hökuməti Zəngəzur və Naxçıvan vilayətlərinə iddia edirdi və sovet Rusiyası da ermənilərin bu iddialarını dəstəkləyirdi. RSFSR ilə daşnak, sonra isə sovet Ermənistanı arasında bağlanmış müqavilələrə görə Zəngəzur və Naxçıvan vilayətləri Ermənistanın ərazisi kimi tanınırdı. Lakin Naxçıvan əhalisinin qəhrəmancasına mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyətinin və Türkiyənin israrı nəticəsində Naxçıvan Azərbaycanın tərkibində qaldı. 1921-ci ilin əvvəllərində keçirilən rəy sorğusunda Naxçıvan bölgəsi əhalisinin 90 faizindən çoxu Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs verdi. Yəni Moskva və Qars müqavilələri imzalanan ərəfədə Naxçıvan Azərbaycanın tərkibində ayrıca ərazi statusunda idi. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın muxtar ərazi statusunda başqa dövlətə güzəştə getməmək şərtilə Azərbaycanın tərkib hissəsi olması bir daha təsdiq edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirildi. Sovet hakimiyyəti dövründə Naxçıvanın Ermənistana verilməsi haqqında məsələ bir neçə dəfə qaldırılsa da, Azərbaycanın qətiyyətli mövqeyi nəticəsində məsələ ermənilərin istədiyi kimi həll olunmadı, lakin Naxçıvan ərazisinin bir hissəsi müxtəlif vaxtlarda Ermənistana verildi".

Hüquqşünas onu da diqqətə çatdırdı ki, Naxçıvan Konstitusiyasından Qars müqaviləsinə istinadın çıxarılması beynəlxalq hüquqi yanaşma baxımından Moskva və Qars müqavilələrinin hüquqi taleyinə təsir göstərən amil hesab edilə bilməz.

**Hüquqşünasın sözlərinə görə, Moskva və Qars müqavilələrində işlədilən "Azərbaycanın himayəsi altında muxtariyyət" ifadəsi 1921-ci ilin siyasi-hüquqi reallığını əks etdirirdi. Bu ifadəni dəyişməz hüquqi norma kimi qəbul etmək düzgün olmaz:** "Həmin müqavilələrin bağlanmasından keçən yüz ildən artıq bir dövr ərzində Naxçıvanın hüquqi statusu beynəlxalq müqavilələrdən konstitusion hüquq müstəvisinə transformasiya olunmuşdur. Bu transformasiya hüquqi varisliyi pozmamış, əksinə, onu yeni dövlətçilik mərhələsinə uyğunlaşdırmışdır. Buna görə də Naxçıvan Konstitusiyasında Qars müqaviləsinə istinadın çıxarılması, hüquqi baxımdan, Naxçıvanın statusunun zəifləməsi kimi deyil, onun artıq birbaşa Azərbaycan Respublikasının konstitusion suverenliyi çərçivəsində əsaslandırılmasının ifadəsidir. Bu gün Naxçıvanın hüquqi statusu yalnız həmin 2 tarixi müqavilələrlə şərtlənmir. Müasir beynəlxalq hüquqa görə Naxçıvanın statusunun hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası ilə yanaşı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, dövlətlərin ərazi bütövlüyü prinsipi, dövlətlərin suveren bərabərliyi prinsipi, beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər və mövcud beynəlxalq praktika təşkil edir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq birlik tərəfindən beynəlxalq hüquqda uti possidetis juris prinsipinə görə SSRİ dövründə mövcud olmuş inzibati sərhədlər əsasında tanınmışdır. Həmin prinsip yeni müstəqil dövlətlərin əvvəlki inzibati sərhədlər daxilində beynəlxalq hüququn subyekti kimi tanınmasını nəzərdə tutur.

Bu baxımdan da Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması yalnız Moskva və Qars müqaviləsinin deyil, həm də müasir beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinin nəticəsidir. Azərbaycanın 1995-ci il Konstitusiyasına görə Naxçıvan MR Azərbaycanın tərkibində muxtar dövlət statusuna malikdir. Yəni Azərbaycan dövləti Naxçıvanın siyasi muxtariyyətin ən yüksək forması statusunu tanıyır və təminat verir. Bu baxımdan Moskva və Qars müqavilələrinə istinadın Naxçıvan MR Konstitusiyasından çıxarılması məsələnin mahiyyətini dəyişdirmir və Naxçıvanın muxtariyyətinin ləğvi və ya Naxçıvanın statusunun dəyişməsi, beynəlxalq təminatların zəifləməsi kimi qiymətləndirilə bilməz.

Əksinə, bu dəyişiklik Azərbaycanın hüquqi siyasətində mühüm konseptual dəyişiklikdən xəbər verir. Tarixi müqavilələr dövlət yaddaşının mühüm hissəsi olaraq qalır, lakin dövlətin ərazi bütövlüyünün və suverenliyinin əsas hüquqi əsası artıq milli Konstitusiya və müasir beynəlxalq hüququn fundamental prinsipləridir. Yəni hüquqi müstəvidə Naxçıvanın statusu həm daxili, həm də beynəlxalq hüquq baxımından kifayət qədər möhkəm əsaslara malikdir. Ermənistan mediasında irəli sürülən iddialar, bu məsələnin hüquqi boşluq kimi təqdim edilməsi isə siyasi-psixoloji və informasiya mübarizəsinin elementi olmaqla hüquqi reallığı deyil, daha çox qərəzli interpretasiyanı əks etdirir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Rusiyadakı azərbaycanlılara “çamadan xəbərdarlığı”

## Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü yeni qanunu MDB ölkələrinə mesaj hesab edir

**Rusiya Dövlət Duması bu həftə ölkədə yaşayan xarici vətəndaşlarla bağlı inzibati məsuliyyəti əhəmiyyətli dərəcədə sərtləşdirəcək qanun layihəsini müzakirəyə çıxaracaq. Qanun qəbul edilərsə, inzibati xəta törədən əcnəbilərin təkcə cərimələnməsi deyil, həm də ölkədən deportasiya olunması halları xeyli artacaq. Bu barədə Dövlət Dumasının sədri Vyaçeslav Volodin məlumat verib.**

Onun sözlərinə görə, məqsəd ictimai təhlükəsizliyi gücləndirmək, miqrasiya sahəsində nəzarəti artırmaq və qanunvericiliyi daha sərt tətbiq etməkdir. Hazırkı qanunvericiliyə əsasən, 22 inzibati xəta üzrə xarici vətəndaşların Rusiyadan çıxarılması mümkündür. Yeni dəyişikliklər qəbul olunarsa, bu siyahı 45 maddəyə qədər genişlənəcək. Volodin bildirib ki, dəyişikliklər Rusiyada qanunsuz miqrasiyanın qarşısının alınması və miqrantların qanunlara riayət etməsinə nəzarətin gücləndirilməsi məqsədi daşıyır. Bununla yanaşı, Dövlət Duması yaxın günlərdə miqrantların əmək fəaliyyəti ilə bağlı qanunlara da yenidən baxmağı planlaşdırır. Gözlənilir ki, xarici vətəndaşların işə qəbul edilməsi, əmək icazələrinin verilməsi və işəgötürənlərin məsuliyyəti ilə bağlı əlavə məhdudiyyətlər də tətbiq olunsun. Bu dəyişikliklər Rusiyada çalışan yüz minlərlə Azərbaycan vətəndaşı üçün xüsusi əhəmiyyət daşıyır. Qanun qəbul ediləcəyi halda, əvvəllər yalnız cərimə ilə nəticələnən bəzi inzibati pozuntular artıq deportasiya qərarı ilə yekunlaşa bilər. Bu isə miqrantların Rusiyada qalmaq və işləmək imkanlarına birbaşa təsir göstərəcək. Rusiyada yaşayan və çalışan Azərbaycan vətəndaşları üçün əsas dəyişiklik ondan ibarət ola bilər ki, gələcəkdə inzibati xətalara görə tətbiq olunan sanksiyalar daha ağır olacaq.



Mövzu ilə bağlı “Yeni Müsavat”a açıqlama verən **Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Vüqar İskəndərov** bildirib ki, Rusiyada yaşayan və çalışan Azərbaycan vətəndaşları baş verən dəyişiklikləri diqqətlə izləməli və miqrasiya qanunvericiliyinin tələblərinə maksimum həssaslıqla yanaşmalıdırlar.

**Deputatın sözlərinə görə, Rusiyada son dövrlər miqrasiya siyasətinin sərtləşdirilməsi sistemli xarakter alıb və yeni qanun layihəsi də həmin siyasətin davamıdır**: “Rusiyada yüz minlərlə Azərbaycan vətəndaşı yaşayır və əmək fəaliyyəti ilə məşğuldur. Ona görə də bu dəyişikliklər soydaşlarımız üçün birbaşa əhəmiyyət daşıyır. Əgər qanun qəbul edilərsə, əvvəllər yalnız inzibati cərimə ilə nəticələnən bəzi pozuntular artıq deportasiya qərarı ilə yekunlaşa bilər. Bu isə hər bir vətəndaşın sənədlərinin tam qaydasında olmasını, qeydiyyat, yaşayış və əmək fəaliyyəti ilə bağlı bütün hüquqi tələblərə ciddi əməl etməsini zəruri edir”.

Azərbaycan dövləti hər zaman xaricdə yaşayan soydaşlarının hüquq və mənafelərinin qorunmasına xüsusi diqqət göstərir. Bununla yanaşı, xarici ölkədə yaşayan hər bir vətəndaş da qəbul edən dövlətin qanunlarına hörmətlə yanaşmalı və hüquqi məsuliyyətini dərk etməlidir.

**Deputat hesab edir ki, son dəyişikliklər fonunda Rusiyada yaşayan Azərbaycan vətəndaşlarının hüquqi maarifləndirilməsi daha da aktuallaşır:** “Bu gün ən kiçik inzibati pozuntu belə gələcəkdə şəxsin ölkədə yaşamaq və işləmək hüququna təsir göstərə bilər. Buna görə də soydaşlarımız miqrasiya statusu, qeydiyyat, əmək müqavilələri və digər hüquqi prosedurlarla bağlı məsələlərə xüsusi diqqət yetirməlidirlər. Profilaktik davranış sonradan yarana biləcək ciddi hüquqi problemlərin qarşısını ala bilər”.

Qanun layihəsinin yekun mətni qəbul edildikdən sonra onun tətbiq mexanizmləri və əhatə dairəsi daha aydın olacaq. Bununla belə, indidən görünən odur ki, Rusiya miqrasiya siyasətində daha sərt nəzarət mərhələsinə keçir və bu proses ölkədə yaşayan bütün əcnəbilər, o cümlədən Azərbaycan vətəndaşları üçün yeni hüquqi reallıq formalaşdıracaq.

**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli hesab edir ki, Rusiyada miqrasiya siyasətinin son illərdə sərtləşdirilməsi artıq dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib:** “Dövlət Dumasında müzakirəyə çıxarılan yeni qanun layihəsi də məhz bu xəttin davamıdır. Layihənin əsas mahiyyəti inzibati xətalara görə xarici vətəndaşlara tətbiq olunan sanksiyaların sərtləşdirilməsi və miqrasiya üzərində dövlət nəzarətinin gücləndirilməsidir. Moskvanın bu addımı ilk növbədə ölkə daxilində təhlükəsizlik, əmək bazarına nəzarət və qanunsuz miqrasiyaya qarşı mübarizə ilə izah olunur. Son illər Rusiyada miqrantların iştirakı ilə baş verən bir sıra hadisələrdən sonra ictimai rəydə də miqrasiya qaydalarının sərtləşdirilməsi ilə bağlı çağırışlar artıb. Hakimiyyət isə bu ictimai sifarişi qanunvericilik təşəbbüsləri vasitəsilə reallaşdırmağa və siyasi niyyətlərini gerçəkləşdirməyə çalışır. Bununla yanaşı, yeni qanunun qəbul edilməsi Rusiyada çalışan yüz minlərlə xarici vətəndaş, o cümlədən Azərbaycan vətəndaşları üçün ciddi nəticələr doğura bilər. Əgər indiyədək bəzi inzibati pozuntular yalnız cərimə ilə yekunlaşırdısa, gələcəkdə həmin pozuntular deportasiya üçün hüquqi əsas yaradacaq. Deportasiya hallarının artması və miqrantlara tətbiq edilən məhdudiyyətlərin sərtləşməsi gələcəkdə bu axını azaldacaq. Bu baxımdan, məsələ təkcə hüquqi deyil, həm də sosial-iqtisadi xarakter daşıyır. Bütün bunlardan doğan siyasi məqsəd və niyyətləri də kənara qoymaq olmaz...”

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

## Rus səfirin qətli casus əməliyyatı kimi tanındı



**Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun 2016-cı ildə qətlə yetirilməsi təkcə terror aktı deyil, həm də ustalıqla hazırlanmış casusluq əməliyyatı olub.**

Moderator.az xəbər verir ki, “Sabah” qəzeti bu barədə məhkəmə materiallarına istinadən məlumat yayıb.

Sənədlərdə qeyd olunur ki, 15 iyul 2016-cı il dövlət çevrilişinə cəhddən sonra FETÖ-nün əsas məqsədi qorxu yaymaq və Türkiyəni nüfuzdan salmaq olub. Təşkilatçılar ölkəni xarici diplomatları qoruya bilməyən “təhlükəli bir yer” kimi təqdim etməyə çalışıblar. “15 iyul çevriliş cəhdinin uğursuzluğundan sonra FETÖ hüceyrələri Türkiyəni müharibəyə sürükləmək üçün şeytani planı işə saldılar”, - deyə nəşr cinayət işinin materiallarından çıxarış təqdim edib.

Sui-qəsdin kəşfiyyat hissəsini Türkiyənin Milli Kəşfiyyat Təşkilatının (MİT) Rusiya bölməsinə sızmış FETÖ üzvləri hazırlayıblar. Onlar diplomatın səfirlikdən çıxma vaxtı, avtomobil nömrələri və mühafizəçiləri barədə məlumat toplayıblar. Hadisə yerində zərərsizləşdirilən qatil Mevlüt Mert Altıntaşın hücuma dörd ay hazırlandığı müəyyən edilib.

Məhkəmə həmçinin müəyyən edib ki, FETÖ cinayətdəki izini gizlətməyə çalışaraq, məsuliyyəti cihadçı qruplaşmaların üzərinə yıxmağa cəhd göstərib. İşin materiallarında o da vurğulanır ki, cinayətin fiqurantlarından biri olan Cemal Karaata əməllərinin nəticəsindən qorxaraq Kanadaya qaçıb.

## Azərbaycanlılar bu ölkədən deport olundu

**Gürcüstan Daxili İşlər Nazirliyinin Miqrasiya Departamentinin əməkdaşları son günlər keçirilən tədbirlər çərçivəsində 50 əcnəbi vətəndaşı deport edib. “Bakupost” xəbər verir ki, bu barədə Gürcüstan DİN məlumat yayıb.**

Məlumatda bildirilib ki, Azərbaycan, Belarus, Misir, Hindistan, Nigeriya, Pakistan, Rusiya, Türkiyə, Türkmənistan, Filippin və digər ölkələrin vətəndaşları ölkədən çıxarılıb. Deportasiya olunmuş şəxslərin Gürcüstana girişi qadağan edilib.

YENİ MÜSAVAT
N 26 (8875) 8 iyul 2026

# Azərbaycan yeni sülhyaratma əməliyyatlarında - generalın mesajı

## BMT və NATO tərəfindən ordumuzun hazırkı münaqişə ocaqlarında aktiv fəaliyyət imkanları öyrənilir

**Müdafiə Nazirliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi tərəfindən birgə hazırlanmış "Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat"ın təqdimat mərasimi keçirilib. "Yeni Müsavat" qeyd edir ki, Azərbaycan və ingilis dillərində dərc edilən hesabatda ordumuzun tərkibində formalaşdırılmış sülhməramlı kontingentin fəaliyyəti təhlil olunub. 1999-cu ildən bəri Azərbaycan Ordusunun 3 mindən çox hərbi qulluqçusu dünyanın müxtəlif bölgələrində həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirak edib. Bunu müdafiə naziri Zakir Həsənov hesabatın ön sözündə bildirib. Nazir qeyd edib ki, Azərbaycan sülhməramlılarının fəaliyyəti missiyaların komandanlıqları, müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən hər zaman yüksək qiymətləndirilib.**

"Qlobal geosiyasi proseslərin gərginləşməsi və dünyanın müxtəlif bölgələrində davam edən münaqişələr göstərir ki, sülhməramlı qüvvələrin rolu getdikcə artır. Azərbaycan dünya birliyinin və BMT-nin üzvü kimi sülhün və qlobal təhlükəsizliyin qorunmasına yönəlmiş bütün təşəbbüsləri dəstəkləyir. Hazırda beynəlxalq sülhün qorunmasına töhfə vermək məqsədilə Azərbaycan Ordusunun BMT və NATO tərəfindən həyata keçirilən müxtəlif əməliyyatlarda iştirak imkanları öyrənilir", - deyə Zakir Həsənov bildirib.

Qeyd edək ki, Milli Məclis 2018-ci il noyabrın 30-da azərbaycanlı sülhməramlıların BMT-nin mandatı altında Cənubi Sudanda beynəlxalq missiyada iştirak etməsinə razılıq verib. Azərbaycan İsrail-Livan münaqişə zonasında sülhməramlı əməliyyatlarda iştirak etmək üçün dəvət alsa da, dərhal öz prinsipial mövqeyini bildirib: iştirak yalnız hərbi əməliyyatların aktiv mərhələsi başa çatdıqdan sonra və yalnız hərbi qulluqçular üçün etibarlı təhlükəsizlik zəmanətləri olduqda təmin olunacaq.

Müdafiə nazirinin hesabatda əks olunan açıqlaması Azərbaycanın gələcəkdə beynəlxalq sülhməramlı missiyalarda iştirakını genişləndirməyə hazırlaşdığına işarə edir. Xüsusilə BMT və NATO çərçivəsində yeni əməliyyatların nəzərdən keçirilməsi rəsmi Bakının beynəlxalq təhlükəsizlik sahəsində daha fəal rol oynamaq niyyətini göstərir. Bu yanaşma Azərbaycanın son illərdə formalaşdırdığı xarici siyasət kursuna da uyğundur. Qarabağ münaqişəsinin başa çatmasından sonra Bakı regional təhlükəsizliklə yanaşı, qlobal təhlükəsizlik təşəbbüslərində də iştirakını artırmağa çalışır. Bu, ölkənin beynəlxalq nüfuzunun güclənməsinə, tərəfdaş dövlətlərlə hərbi əməkdaşlığın genişlənməsinə və Azərbaycan Ordusunun peşəkar hazırlığının daha da inkişaf etməsinə xidmət edir. Digər tərəfdən, geosiyasi gərginliyin artdığı indiki dövrdə sülhməramlı əməliyyatlarda iştirak müəyyən risklər də yaradır. Buna görə də Azərbaycanın hansı missiyalara qoşulacağı siyasi, hərbi və diplomatik amillər nəzərə alınmaqla müəyyən ediləcək.



"Azərbaycanın sülhməramlı missiyalarda fəaliyyətinin hansı istiqamətdə inkişaf etdiriləcəyi indidən planlaşdırılmalıdır". Bunu **Təhlükəsizlik Şurası Katibinin Xidmətinin Hərbi təhlükəsizlik məsələləri şöbəsinin müdiri general-mayor Elman Səmədov** "Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat"ın təqdimat mərasimində bildirib. O qeyd edib ki, hər hansı bir ölkənin sülhməramlı missiyalarda iştirakı elə də asan deyil: "Müharibə aparmış dövlətin öz hərbi qulluqçularını ölkə hüdudlarından kənarda sülhməramlı əməliyyatlara göndərməsi mühüm və məsuliyyətli addımdır". **General-mayor bildirib ki, hesabat hazırlanarkən NATO-da tətbiq olunan ən qabaqcıl təcrübə və standartlardan istifadə edilib**: "Əməliyyatların planlaşdırılması, müxtəlif bölmələr arasında qarşılıqlı fəaliyyətin təşkili, missiya komandanlığı və digər istiqamətlər NATO meyarları əsasında təhlil olunub". **Hərbi ekspert Ramil Məmmədlinin** dediyinə görə, Azərbaycan sülhməramlı missiya tərkibində öz töhfəsini verib. Onun fikrincə, bundan sonra da münaqişə ocaqlarında ordumuzun sülhməramlı missiyası fəaliyyət göstərməyə hazırdır: "Hətta bəzən fikirlər səslənir ki, Ukraynada atəşkəs olarsa, bölgəyə BMT sülhməramlılarının tərkibində Azərbaycan hərbçiləri də ola bilər. Mən bu versiyanı istisna etmirəm. Azərbaycan sülhməramlıları Kosova, Əfqanıstan və İraqda bu təcrübəni keçiblər. Nəzərə alaq ki, o dövrdən xeyli keçib və təcrübə artıb. Yəni indi münaqişə zonasında daha böyük təcrübə ilə iştirakımız mümkündür. Ona görə də ABŞ, bütövlükdə NATO üçün Azərbaycanın sülhməramlı missiyada iştirakı arzuolunandır".

**R.Məmmədli xatırladıb ki, Qəzza anklavı üçün sülhməramlı missiyanın tərkibində Azərbaycan Ordusunun da tərkibi istəkləri var idi:** "Bu çağırışları xatırlayıņq. Prezident İlham Əliyev də müzakirələrə münasibət bildirmişdi. Dövlət başçısı demişdi ki, əsgərlərimizi riskə atmaq istəmirik. Çünki Qəzza zolağında sabitlik bərqərar olmayıb. Bununla belə, ordumuzun sülhməramlı missiyası hər bir situasiyaya hazırdır. Biz Kabul hadisələrini xatırlaya bilərik. Azərbaycanlı sülhməramlılar etibarlı tərəfdaşdır. Ona görə də istənilən sülhməramlı əməliyyatlarda iştirak üçün kifayət qədər təcrübə var. Sadəcə, bunu qısqanclıqla qarşılayan mərkəzlər də var. Biz onlara əhəmiyyət verməməliyik. Azərbaycan NATO və BMT üçün etimad qazanmış tərəfdaş ölkədir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Dünyanın ən müasir yeddi hava hücumundan müdafiə sistemi

## Ən qabaqcıl və ən effektiv silahlar sırasında Rusiya liderliyini qoruyur

**Müasir dövrdə ballistik və hipersəs raketləri, qanadlı raketlər, Pilotsuz Uçuş Aparatları (PUA) və aşağı radara görünmə qabiliyyətinə malik təyyarələrin yaratdığı təhdidlər hava hücumundan müdafiə sistemlərinin əhəmiyyətini daha da artırıb.**



Ordu.az xəbər verir ki, "Naked Science" nəşri dünyanın texnoloji baxımdan ən qabaqcıl və ən effektiv yeddi hava hücumundan müdafiə sistemini təqdim edib.

### 1. S-500 "Prometheus" (Rusiya)

"S-500" "Prometheus" uzaqmənzilli hava hücumundan müdafiə və raket əleyhinə müdafiə üçün nəzərdə tutulmuş Rusiyanın ən yeni strateji sistemidir. Kompleks təyyarələri, ballistik raketləri, Yerə yaxın aşağı orbitdə yerləşən peykləri və hipersəs silahlarının bəzi növlərini məhv etmək üçün hazırlanıb.

Açıqlanan məlumatlara görə, sistem hava hədəflərini 600 kilometr məsafədə, təxminən 200 kilometr yüksəklikdə məhv edə bilir ki, bu da onu dünyanın ən uzaqmənzilli sistemlərindən birinə çevirir. Bununla belə, açıqlanan texniki xüsusiyyətlərin böyük hissəsi sistemin praktik istifadəsi barədə açıq məlumatların məhdud olması səbəbindən müstəqil şəkildə təsdiqlənməyib.

### 2. THAAD (ABŞ)

THAAD (Terminal High Altitude Area Defense) kiçik, orta və orta mənzilli ballistik raketlərin trayektoriyasının son mərhələsində birbaşa zərbə prinsipilə işləyən kinetik raketlərlə məhv edilməsində ixtisaslaşıb.

THAAD "Patriot" və "Aegis" sistemləri ilə yanaşı, ABŞ və müttəfiqlərinin raket əleyhinə müdafiə arxitekturasının əsas elementlərindən biri hesab olunur. Kompleks Cənubi Koreya, Quam adası, İsrail, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərində yerləşdirilib.

### 3. "Patriot" PAC-3 MSE (ABŞ)

"Patriot" PAC-3 MSE döyüş şəraitində ən çox sınaqdan keçirilmiş inteqrasiya edilmiş hava hücumundan müdafiə sistemlərindən biri olaraq qalır.

Kompleks əvvəlcə aviasiyaya qarşı mübarizə üçün hazırlansa da, sonradan qanadlı raketlərə, PUA-lara və taktiki ballistik raketlərə qarşı yüksək effektivliyə malik sistemə çevrilib. Müasir kinetik raket əvvəlki modifikasiyalarla müqayisədə daha yüksək məhvetmə qabiliyyətinə malikdir, davamlı modernləşdirmə isə kompleksin uzun illər aktuallığını qorumasına imkan verir.

Hazırda "Patriot" 18-dən çox ölkənin silahlanmasındadır və NATO standartlarına uyğun hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemlərinin əsas nümunələrindən biri hesab olunur.

### 4. "S-400" "Triumph" (Rusiya)

Rusiyanın "S-400" "Triumph" kompleksi hazırda istismarda olan ən geniş yayılmış uzaqmənzilli hava hücumundan müdafiə sistemlərindən biridir.

Sistem müxtəlif mənzillər üçün optimallaşdırılmış bir neçə növ raketdən istifadə etməklə eyni vaxtda təyyarələri, qanadlı raketləri, PUA-ları və ballistik raketləri məhv edə bilir.

Kompleks Çin, Hindistan və Türkiyə də daxil olmaqla bir sıra ölkələrə ixrac edilir ki, bu da müasir "stealth" təyyarələrə qarşı real effektivliyi barədə müzakirələrə baxmayaraq onun strateji əhəmiyyətini göstərir.

### 5. "David's Sling" (İsrail)

"Rafael" və "RTX" şirkətlərinin birgə hazırladığı "David's Sling" sistemi İsrailin çoxpilləli raket əleyhinə müdafiə sistemində "Iron Dome" ilə "Arrow" kompleksləri arasında orta pilləni tutur.

Kompleks yüksək manevr qabiliyyətinə malik "Stunner" raketindən istifadə etməklə taktiki ballistik raketləri, qanadlı raketləri, təyyarələri, PUA-ları və ağır idarəolunmayan reaktiv mərmiləri məhv etmək üçün optimallaşdırılıb.

Sistem artıq döyüş növbətçiliyindədir və İsrailin çoxpilləli raket əleyhinə müdafiə sisteminin əsas elementlərindən biri hesab olunur.

### 6. SAMP/T NG (Fransa - İtaliya)

SAMP/T NG Avropanın ən müasir quru bazalı hava hücumundan müdafiə sistemi hesab olunur.

Kompleks "Aster 30" raketləri əsasında hazırlanıb və eyni vaxtda çoxsaylı hədəfləri müşayiət edərək təyyarələrdən, qanadlı raketlərdən, PUA-lardan və ballistik raketlərdən müdafiəni təmin edə bilir.

Yeni nəsil sistem müasir AESA radiolokasiya stansiyaları, genişləndirilmiş idarəetmə və koordinasiya imkanları, həmçinin radioelektron mübarizə vasitələrinə qarşı yüksək davamlılıq əldə edib.

Gözlənilir ki, yaxın illərdə SAMP/T NG NATO daxilində Avropanın əsas uzaqmənzilli hava hücumundan müdafiə sistemlərindən birinə çevriləcək.

### 7. HQ-9B (Çin)

HQ-9B Çin Xalq Azadlıq Ordusunun strateji hava hücumundan müdafiə sisteminin əsasını təşkil edən uzaqmənzilli zenit-raket kompleksidir.

Konsepsiya baxımından o, tez-tez Rusiyanın "S-300" və "S-400" sistemləri ilə müqayisə olunur. HQ-9B təyyarələri, qanadlı raketləri və ballistik raketlərin bəzi növlərini Çinin vahid hava hücumundan müdafiə arxitekturası çərçivəsində məhv edə bilir.

Kompleks ixrac da olunur ki, bu da Çinin silah və müdafiə texnologiyaları bazarında artan təsirindən xəbər verir.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 26 (8875) 8 iyul 2026

# Dəmir kimi adam - Rafael Fiziyevin həyat hekayəsi

## "Ataman" ləqəbli qaydasız döyüş ustası, əslən biləsuvarlı və İmam Hüseyn aşiqi...



**14 noyabr 1914-cü ildə "İqbal" qəzetində çap olunmuş "Aşura" məqaləsində Məhəmməd Əmin Rəsulzadə yazır ki, "Hüseyn əleyhissəlam inandığı və etiqad elədiyi fikri üstündə ölməyincə, özünün əbədi bir rəhmətə nail ola bilməyəcəyini göstərmiş ikən, biz "mən - mənə, o - ona, o - o yana" timsalından dörd əlli yapışıb səadətdarini üç-dörd qətrə göz yaşı müqabilində veriləcək qədər ucuz bir şey sandıq..."**

Mahatma Qandi isə deyir ki, "Mən inqilabımda İmam Hüseynin hərəkatına borcluyam". Tolstoy da qeyd edir ki, "Zəburun, Tövratın, İncilin faciəsi onda oldu ki, onların Quranın qəhrəmanı kimi İmam Hüseyni olmadı".

Beləliklə, onlarla siyasət, elm, ədəbiyyat adamlarından, qeyri-müsəlman (alman, ingilis və s.) mütəfəkkirlərdən iqtibaslar gətirmək olar ki, İmam Hüseyn məktəbini öz xalqları üçün bir örnək göstərirlər. Yəni Kərbəla hadisələri yalnız İslam xilafəti və onun coğrafiyası ilə məhdudlaşmır.

**Hüseyn aşiqi**

Ona görə üstündən 14 əsr keçən Aşura qətliamı bu gün də hətta İslam və ya şiə müsəlmanı coğrafiyasından kənarda yaşayanların qəlbini sarsıdır. Onlardan biri Azərbaycanı mua-tay döyüşlərində təmsil edən Rafael Fiziyevdir. Sosial şəbəkələrin Azərbaycan seqmenti qələbədən sonra Rafaelin rinqdəki çıxışını hələ də müzakirə etməkdədir.

O, göz yaşları içərisində olmasını qələbə sevinci ilə bağlamır, deyir ki, İmam Hüseynin şəhadətinin 3-cü günü ilə əlaqədardır. Və rinqdə yüzlərlə insanın qarşısında İmam Hüseyni, Əbəlfəzl Abbası və digər Kərbəla şəhidlərini zikr edir. Bu, idman yarışları tarixində bəlkə də ilkdir. Biz idmançıların ən müxtəlif şəkillərdə dini ritualların, dualarını görmüşük, amma Fiziyevin rinqdə az qala Kərbəla şəhidləri üçün üsyan etdiyini söyləmək olardı. Elə bu günlərdə onun daha bir görüntüləri yayıldı. Rafael məscidlərin birində əzadarlıq edir, sinə döyürdü. Onun sərt idman növü ilə məşğul olmasına baxmayaraq, kövrək ürək sahibi olduğu həm Kərbəla şəhidlərinə məhəbbətindən, həm də onlar üçün sidq-ürəklə rinqdə göz yaşı tökməsindən hiss olunur. Və MMA döyüşçüləri arasında Rafael yəqin ki, yeganə güclü şiə inanclıdır. Hərçənd özü çıxışlarında məzhəb ayrı-seçkiliyinin əleyhinə çıxır, lakin onun Hüseyni, Abbası, Səkinəni zikr etməsi, məsciddə əzadarlığı bir faktdır ki, güclü şiə müsəlmanıdır.

Hətta ötən il Fiziyev İraqın Kərbəla şəhərinə səfər edib.

O, "Hacı Şahin Dostları" tərəfindən qurulan xeyməni (çadır) də ziyarət edib.

Bir sözlə, ölkəmizdə və şiə coğrafiyasında hazırda davam edən Məhərrəm ayının hər il xatırlanan qəhrəman şəhidləri ilə yanaşı, bu dəfə Hüseyn aşiqi Rafael Fiziyev də ictimaiyyətin və "Yeni Müsavat"ın "Persona" rubrikasının diqqət mərkəzindədir...

**Biləsuvarlı balası**

Azərbaycanın adını UFC-də (Ultimate Fighting Championship - Mütləq Döyüş Çempionatı) layiqincə təmsil edən Rafael Salman oğlu Fiziyev 5 mart 1993-cü ildə Qazaxıstanda anadan olub. Onun atası milliyyətcə azərbaycanlı, anası isə rusdur. Kiçik yaşlarında ailəsi ilə birgə Qırğızıstana köçüb. Fiziyevin (Feyziyev) əslən Biləsuvar rayonu ilə bağlılığı müəyyən olunub. O, ölkə telekanallarından birində qonaq olarkən, atasının əslən biləsuvarlı olduğunu demişdi: "Atam əslən biləsuvarlıdır. Bu yaxınlarda qohumlarım söhbət zamanı mənə bildirdilər ki, Milli Qəhrəmanımız, şəhid Mübariz İbrahimov da biləsuvarlıdır. Mənim üçün bu, həqiqətən də böyük fəxrdir. Fəxr edirəm ki, həmin bölgədənəm və mənim əslim ordandır".

Atası Feyziyev Salman Əliabbas oğludur. Ulu babası Kazım 1930-cu illərdə Qazaxıstana sürgün edilib. Feyziyevlər ailəsi sürgün olunanadək Biləsuvarda həmin dövrdə İran sərhədi istiqamətində yerləşən Qriboyedovka kəndində yaşayıblar. Kazım kişi ömrünün sonunadək Qazaxıstanda yaşayıb və orada vəfat edib. Onun 10 övladı olub. Məhz Rafael də onun 10 övladından biri Əliabbasın nəvəsidir.

Rafael atasının təşəbbüsü ilə məktəb illərində muay-tayla məşğul olmağa başlayıb. Sonrakı illərdə Rafael döyüş sambosu, boks, cui-citsu, güləş növlərində də özünü sınayıb. Yetkinlik yaşına çatdıqdan sonra ustalığını artırmaq üçün Tailanda köçür. Lakin maddi çətinliklər ucbatından çox keçməmiş Qırğızıstana qayıtmaq lazım gəlir. Bu zaman gənc idmançı özünə yeni peşə seçir. Qırğızıstan Daxili İşlər Nazirliyinin məktəbinə daxil olan

Rafael atası kimi polis olmaq istəyir. Lakin bu sevda uzun çəkmir. Tezliklə hüquq-mühafizə sistemindən tərxis olaraq, bütün fikrini peşəkar idmana yönəldir.

**Qırğızıstandan ayrılıq səbəbi**

Bioqrafiyasından da göründüyü kimi, Rafael elə bir mühitdə yaşayıb ki, orada şiə məzhəbi güclü təsirə malik deyil. Yəni Orta Asiyada Aşuranın qeyd olunması olduqca məhdud kontingenti əhatə edə bilər. Amma Fiziyev belə bir şəraitdə olduqca güclü imana malik şiədir.

Görünür ki, burada ailənin təsirləri, yaxud da çevrəsindəki şiə inanclılarının rolu olub. Fiziyev ailəlidir, Kamilla adlı özbək əsilli xanımla evlidir. Onların Musa və Əli-Abbas adlı iki oğlu var. O, 2021-ci ildə Qırğızıstanı təmsil etsə də, daha sonra baş verən xoşgəlməz hadisələrə görə uşaqlıq və yeniyetməlik dövrünü keçdiyi ölkə ilə vidalaşır. Həmin vaxtdan etibarən Azərbaycan bayrağını dalğalandırır. Belə ki, Fiziyevin Qırğızıstanı tərk edərək Azərbaycanı təmsil etməsinə səbəb ölkədə ona və ailəsinə qarşı dini zəmində yaranan təhdidlər olub.

İdmançıya qarşı təzyiqlər onun dini baxışları, xüsusilə də məsciddə çəkilən və sosial şəbəkələrdə yayılan görüntüləri ilə bağlı yerli din xadimlərinin tənqidlərindən sonra başlayıb. "Müftilik düşünmədən hərəkatıma qarşı və şəxsən mənim əleyhimə danışdı. Sonra savadsız fanatiklər hücum etdilər, nifrət dəhşətli idi. Orada o qədər cinayət işi açıla bilərdi. Hakimiyyət diqqət yetirmədi, ictimaiyyət dəstəkləmədi. Düşündüm ki, deməli, ora mənim deyil, mənim evim deyil", - Rafael izah edib.

O, Azərbaycanı çox sevdiyini bildirir və vətəni sayır. Yeri gəlmişkən, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurasının üzvü Hacı Surxay Məmmədli ona üzük hədiyyə edib. Yəni Rafael təkcə döyüşçü yox, həm də bir inanclı kimi Azərbaycanda rəğbət qazanmaqdadır.

**14 qələbə, "Zəngəzur Azərbaycandır!" elanı**

Əslində, karyerasının ilk illərində "W.I.N FC, Boroda FC", "Primal FC", "Road FC" və "Titan FC" turnirlərində qüvvəsini sınayan Fiziyev 2019-cu ildə qərarını verir: yalnız UFC yarışları! Rafael indiyədək bu çempionatda çıxış edir. Yeri gəlmişkən, Fiziyevin ləqəbi "Ataman"dır. O, UFC-də 3 dəfə "Gecənin çıxışı", 3 dəfə isə "Gecənin döyüşü" mükafatına layiq görülüb. O, 2023-cü ilin martında ABŞ təmsilçisi Castin Qeyci ilə mübarizədə yaxşı təsir bağışlasa da, hakimlərin qərarı ilə məğlub olub. Bundan altı ay sonra oktaqona qayıdan Rafael bu dəfə bəxtsizliklə üzləşib. Polşalı Mateuş Qamrotla döyüşün 2-ci raundunda diz nahiyəsindən ciddi zədə alan idmançımız görüşü davam etdirə bilməyib.

Amma onu da deyək ki, 2026-cı ilin fevralında UFC 325 turnirində Fiziev avstraliyalı döyüşçü Maurisio Rafi ilə qarşılaşıb və ikinci raundda texniki nokautla məğlub olub. Bu, onun peşəkar MMA karyerasında nokautla aldığı ikinci məğlubiyyətdir. Ümumilikdə, 14 qələbə və 5 məğlubiyyətdən ibarət statistikaya malikdir. Rafaelin uğur sirri onun qeyri-adi "Matrix" sayağı müdafiə bacarığı, dünya səviyyəli Tay boksu (Muay Tay) zərbə texnikası və Tailanddakı məşhur "Tiger Muay Thai" klubunda keçdiyi ağır məşq proseslərinə dayanır.

Rəqibin başa vurduğu zərbələrdən yayınmaq üçün bədəni qeyri-adi şəkildə geriyə əyməsi onun qeyri-rəsmi "Matris" üslubu adlanır və rəqibləri çaşbaş salır. Muay Tay elementlərini kəskin şəkildə birləşdirərək həm ayaqla (diz, fırlanan zərbələr), həm də əllərlə ani və dağıdıcı zərbələr endirə bilir. Həm sağ, həm də solaxay mövqedən döyüşə bilməsi ona rəqibləri təəccübləndirmək və istənilən məsafədən hücum etmək imkanı yaradır.

Rafael Fiziyev növbəti döyüşünü keçmiş yüngül çəki çempionu Çarlz Oliveyra ilə keçirməyi planlaşdırır. Fiziyev braziliyalı ilə qarşılaşmaq istəyini açıq şəkildə ifadə edərək, hazırda titul uğrunda mübarizədən daha çox maraqlı qarşılaşmalara diqqət yetirdiyini qeyd edib. Döyüşün rəsmi tarixi və müqaviləsi hələ açıqlanmayıb.

Ən nəhayət, Fiziyev bir Azərbaycan sevdalısıdır. Hələ 2023-cü ildə Azərbaycan-Ermənistan sərhədində baş verən gərginlikdən sonra "Instagram" hesabında Zəngəzurun xəritəsini paylaşıb və "Zəngəzur Azərbaycandır!" yazıb. Bugünlərdə isə UFC-nin yüngül çəkidə əsas ulduzlarından biri olan Arman Sarukyan Fiziyevi bəyənir, hesab edir ki, o, hazırda divizionda hamıdan daha yaxşı zərbələrə malikdir, texnikası çox yüksək səviyyədədir.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"ın redaktoru**



# Hamınız mənim kimi fikirləşin

Zamin HACI
zaminhaci@gmail.com

**Uca millətimiz yenə düşüb Əkrəm Əylislinin üstünə, bu dəfə haradansa aldığı yoluq bir mükafatı ağsaqqalın burnundan gətirmək istəyirlər. ("Yoluq" ifadəsi mükafatın ancaq maddi tərəfinə aiddir, mənəvi əhəmiyyəti barədə heç bir fikrim yoxdur. Mükafat, deyəsən, 10 min avro olmalıdır, Əylisli vaxtilə Vasif xandan və YAP iqtidarından bunun 10 qat artığını ala bilirdi). Tənqid-təhqirlərin əsas motivi isə budur ki, niyə Əkrəm müəllim xalqımızı aşağılayan bədii əsər qaralamışdır. Biz hələ də başa düşmürük ki, yazıçı kefi istədiyi mövzuda, ağlı necə kəsirsə, qəlbi nə cür duyursa elə yazmaq haqqına malikdir. Sanarsan Əylisli müdafiə naziri imiş, düşmənə hərbi xəritələri və dövlət sirrini satıbdır.**

Əslində bu yanaşma tək ədəbiyyata nisbətdə deyil, bədbəxtliyimizin əsas səbəblərindən biri budur: biz hamının bizim istədiyimiz kimi olmağını, bizim kimi fikirləşməyini, bizim kimi yaşamağını istəyirik. Nəinki istəyirik, bəzən buna adamları zorlayırıq. Əlbəttə, kimin gücü nəyə çatırsa. İmkanı çatan kitab yandırır, türməyə basır, ağzını əzir, pensiyasını kəsir, çatmayan sosial şəbəkədə söyüş-təhqir yağdırır.

Əkrəm Əylislinin, o məşhur erməni köçkünün sözü olmasın, "azərbaycanlılar millət dəyil" temasında yazdığı romana bənzər söhbətləri prinsipcə, çoxları ev-eşikdə, küçədə-bayırda səsləndirir. Hətta 90-cı illərdə "bizim millət pisdir" deyə bir mental yanaşma formalaşmışdı, buna məqalələr, verilişlər həsr olunardı. Lakin nədənsə orada-burada danışdığımızı kimsə başqa formada kitaba salanda qəzəblənirik. Bunun adı, üzrlü sayın, riyakarlıqdır.

Uzun sözün qısası, düşüncə-fikir azadlığı insan hüquqlarının təməlidir. Hər şey buradan başlanır. Əgər sən bu gün Əkrəm Əylisliyə ağlına gələni (lap elə ağzına gələni) yazmaq haqqını tanımasan, bu işin sonu yoxdur. Daha doğrusu, var və çox pis sondur. Fikir azadlığını boğmaq istənilən irticanın bünövrəsidir, təməl daşıdır. Sabah başqası başqa fikirdən inciyəcək, o deyəcək sənin bu temadan yazmaq haqqın yoxdur, bu deyəcək biz seçilmiş insanlarıq, sayımız nə bilim neçə milyarda çatır, gərək ayaqqabımızı yalayasınız və sairə. Və sizi qəti əmin edirəm ki, əgər Əylislinin o cızmaqarası (şəxsən mən Əkrəm müəllimdən "Daş yuxular"dan milyon dəfə üstün bədii əsərlər oxumuşam) ətrafında bu mənasız diskussiya yaradılıb hələ indiyəcən davam etdirilməsəydi, həmin romanı heç ermənilər də oxuyub yaymazdılar.

Ancaq onu da anlayıram ki, indi dünyada aşağı-yuxarı trend bu cürdür, nə etmək olar... Türkiyədə NATO sammitinə müxalif fikirli jurnalistləri buraxmadılar. Təsəvvür edin. Guya bu təşkilat dünyada demokratiyanın qarantı idi.

Hələ futbol üzrə dünya çempionatında ABŞ prezidentinin FİFA müdirinə zəng vurub qırmızı vərəqəni ləğv etdirməsi tragikomediyanın zirvələrindən sayılmağa haqq edir. Tarkanın bir şarkısı yada düşür: "Biz böyle mi gördük babamızdan? Ele güne rezil olduk. Yeni adet gelmiş eski köye, vah. Dostlar, mahvolduk". Sadəcə, NATO müdiri Rütte-nin Trampa "baba" deməyini nəzərə alanda mahnı bir az mənasını dəyişir - "babamız" elə həmişə bu cür davranmışdır, adət yeni deyildir.

Yeganə müsbət cəhət o idi ki, vərəqəsi "dondurulan" oyunçu bir... qola yaramadı, ABŞ millisi Belçikaya biabırçı hesabla uduzdu. Buradan belə məntiqi nəticə çıxır ki, FİFA müdirinə deyil, Belçika yığmasına telefon açmaq lazım imiş. Məsələn, "Əgər oyunu udsanız hamınızı Maduronun kamerasına salacam, yaxud Hamaneyin yanına göndərəcəyəm", "Brüsseli şumlayıb yerində kələm əkəcəyəm", "Uşaq heykəlinizin bir yerini qopararıq" və sairə söyləməklə. Ancaq bunların belçikalılara təsiri olacaqdımı, buna qarantiyamız yoxdur.

Çünki dünyada hələ də düşüncə və iradə azadlığını hər şeydən üstün bilən insanlar və ölkələr qalmaqdadır. Xoşbəxtlikdən.

***P.S. Bu yazıdakı heç bir cümlə Quran ayəsi deyil.***



# Erməni müxalifətinin iki hədəfi - həm Bakı, həm İrəvan...

## Seçkilərdə uduzan revanşistlər indi də ölkənin gələcəyini müəyyənləşdirəcək referenduma qarşı birləşirlər

**Konstitusiya Məhkəməsinin qərarından sonra Ermənistanın aparıcı müxalif siyasi qüvvələri birgə bəyanat yayaraq fəaliyyətlərini koordinasiya etmək barədə razılığa gəliblər. Onların əsas hədəfi Ermənistanla sülhün əsas şərti olan konstitusiyaya mümkün dəyişikliklərin qarşısının alınması və hakimiyyət dəyişikliyinə nail olmaqdır. Yəni əslində erməni müxalifətinin iki hədəfi var: həm Bakı, həm İrəvan...**

Müşahidəçilərə görə, bu, son illərdə Ermənistan müxalifətinin ən geniş koordinasiya yaratmaq cəhdlərindən biri kimi qiymətləndirilir. Lakin siyasi müşahidəçilər qeyd edirlər ki, müxalifətin vahid mövqedən çıxış etməsi hələ onun geniş ictimai dəstək qazanacağı anlamına gəlmir.

Formal baxımdan Konstitusiya Məhkəməsinin qərarı Paşinyanın mövqeyini möhkəmləndirib. Lakin digər tərəfdən, müxalifətin məhkəməyə inamını tam itirməsi gələcəkdə siyasi proseslərin daha çox küçə etirazları və ictimai təzyiq vasitəsilə aparılmasına səbəb ola bilər. Seçkilərin legitimliyi ətrafında davam edən mübahisələr Ermənistanın beynəlxalq imicinə də təsirsiz ötüşməyə bilər. Qərb institutları indiyədək seçkilərin nəticələri barədə sərt bəyanatlar verməsələr də, ölkədə hüquq sistemi və demokratik institutların fəaliyyəti bundan sonra daha yaxından izlənilə bilər. Əgər daxili siyasi böhran uzun müddət davam edərsə, bu, xarici investorların qərarlarına, beynəlxalq maliyyə proqramlarına və Ermənistanın regional diplomatik imkanlarına da müəyyən təsir göstərə bilər.

Bir sıra erməni siyasi şərhçiləri hesab edirlər ki, hazırda cəmiyyətdə ciddi narazılıq olsa da, genişmiqyaslı etiraz aksiyaları üçün yetərincə sosial enerji formalaşmayıb. Son illərin siyasi böhranları, iqtisadi problemlər və müharibələrin yaratdığı yorğunluq əhalinin əhəmiyyətli hissəsini passiv müşahidəçi mövqeyində saxlayır. Bu səbəbdən müxalifətin əsas vəzifəsi hüquqi arqumentlərlə yanaşı, cəmiyyətin etimadını yenidən qazanmaq olacaq.

Onu da demək lazımdır ki, Azərbaycan üçün Ermənistan seçkilərinin nəticələri fundamental əhəmiyyət kəsb edir. Mövcud hökumət parlamentə nəzarəti saxlayarsa, Bakı ilə İrəvan arasında sülh prosesinin davamı ehtimalı xeyli artacaq. Çoxsaylı ziddiyyətlərə baxmayaraq, Paşinyan hökuməti yeni regional reallıqları tanımaq və güzəştli həllər axtarmaq istəyini nümayiş etdirir. Eyni zamanda seçkilərdən sonra Qərb oyunçularının Cənubi Qafqazda uzunmüddətli sabitləşmədə marağı səbəbindən danışıqlar prosesinin əlavə təkan alacağını istisna etmək olmaz.Yeri gəlmişkən, "Stratfor" mərkəzinin analitik yazısında qeyd olunub ki, 2026-cı ilin üçüncü rübündə Ermənistan avropayönlü siyasət yürütməyə davam edəcək, Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmağa çalışacaq. Təhlildə deyilir ki, konstitusiya çoxluğunun olmaması bu prosesi əsasən texniki məsələlərin həlli ilə məhdudlaşdıracaq: "Paşinyanın partiyası parlamentdə konstitusiyanı müstəqil şəkildə dəyişdirmək üçün kifayət qədər mandata malik deyil. Çox güman ki, Ermənistan Azərbaycanın konstitusiya dəyişiklikləri tələblərini yerinə yetirməyəcək. Rusiyanın Cənubi Qafqazdakı zəifləyən təsirindən istifadə etməyə çalışan Türkiyə də mövcud vəziyyətdən istifadə etməyə çalışacaq və Azərbaycanı Paşinyanın yenilənmiş mandatını sülh sazişinə doğru irəliləmək üçün bir fürsət kimi görməyə çağıra, eyni zamanda Ermənistana konstitusiya dəyişiklikləri tələbini təxirə sala bilər".

Amma **deputat Elşad Musayev** "Statfor"un proqnozu ilə razılaşmır. Parlament üzvünün "Yeni Müsavat"a bildirdiyinə görə, Ermənistanın Rusiyadan iqtisadi asılılığını aradan qaldırmasının yeganə yolu Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq, quru sərhədlərin açılmasıdırsa, sözügedən şərtləri yerinə yetirməlidir. Onun fikrincə, Paşinyan iqtidarı ən azı Rusiyadan qurtuluş naminə bu addımı atmalıdır: "Çünki Rusiya onu sərhədçilərinin varlığı, 102-ci bazası, iqtisadi təsiri ilə şantaj edir. Paşinyan hökuməti də anlayır ki, Türkiyə və Azərbaycanla razılaşmaq lazımdır. Bu, təkcə qonşularla münasibətləri yaxşılaşdırmaq naminə deyil. İrəvana Avropaya çıxış, Rusiyadan qurtuluş lazımdır. Üstəlik, Ermənistanın quru sərhədlərinin 70-80 faizi bağlıdır. Bu, ciddi məsələdir. Biz pandemiyadan bəri quru sərhədlərimizin qapalı olduğunu deyirik. Təsəvvür edin, Ermənistanın quru sərhədlərinin Türkiyə və Azərbaycana aid böyük hissəsi 30 ildən çoxdur ki, bağlıdır. Bu da iqtisadi təsirlərini göstərir. İndi Paşinyan təklif edir ki, konstitusiya dəyişsin, ərazi iddialarına son qoyulsun, bununla da qonşularla problemlər həllini tapsın".

**Musayev hesab etmir ki, erməni müxalifəti prosesə ciddi əngəl olacaq:** "Müxalifətin bu çağırışları mənasızdır. Biz son seçkilərdə ermənilərin mövqeyini öyrəndik. Xalq müxalifətlə həmrəy deyil. Doğrudur, Paşinyanın partiyası yüksək faiz səs də almadı. Amma xalqın yarısı onu dəstəklədi. Bundan sonrakı təbliğat və müxalifətin gücsüzlüyü hakimiyyətin növbəti planlarını reallaşdırmağa imkan verəcək. Bu konstitusiya dəyişiklik olacaq. Ola bilsin ki, referendum ağır keçəcək. Amma buna qədər hakimiyyət propoqandanı gücləndirəcək. Ermənilər də anlayır ki, ölkənin inkişafı üçün ilk dəfə real şərait yaranıb. Paşinyan xalqa səhv yol göstərmir. Əgər xalq bu müxalifətin çağırışlarını eşidəcəksə, növbəti fəlakətlə üzləşəcək və axmaq ideyaların ucbatından Rusiyanın ağuşuna düşəcək".

**Deputat əlavə edib ki, müxalifətin birliyi iqtidara problem yarada bilər, lakin nəticələri dəyişməyəcək. O, ilin sonuna qədər yekun sülh müqaviləsinin imzalanacağına ümid edir:** "Bunun üçün Bakı və İrəvan görüşləri intensivləşdirməlidir. Hər iki tərəf anlayır ki, sülhə qarşı güc mərkəzləri var. Onlar sülh prosesinin pozulmasını çox arzulayır. Bu qüvvələrin arzusunu ürəyində qoymaq lazımdır. Erməni cəmiyyəti başa düşməlidir ki, müxalifəti eşitməklə ağ günə çıxmayacaq. Əksinə, vəziyyətdən istifadə edənlər olacaq. Bu məsələdə Bakı və İrəvan müştərək hərəkət etməlidir".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 26 (8875) 8 iyul 2026

# İranın Qafqazda “jandarm olmaq” iddiası

## Tehran İrəvanı açıq şəkildə himayə etməyə başlasa, bu, regionda qüvvələr balansına təsirsiz ötüşməyəcək; bu ssenari regiona və Zəngəzur dəhlizinə nə vəd edir?

**Yaxın Şərqdəki böhranlar fonunda İranın xarici siyasət prioritetləri dəyişsə də, Cənubi Qafqaz siyasətində xüsusi yerini qoruyur. Ekspertlər hesab edir ki, İran regional təsir imkanlarını bərpa etmək məqsədilə İrəvanla siyasi, iqtisadi və təhlükəsizlik əməkdaşlığını daha da dərinləşdirə bilər. Ali dini liderin dəfn mərasimlərində “qisas bayrağı”nın qaldırılması təkcə emosional və dini simvol deyil, həm də Tehranın daxili və xarici auditoriyaya ünvanladığı siyasi mesajdır. Bu bayraq adətən İranın cavab vermək əzmində olduğunu nümayiş etdirir və ölkənin regional təsir imkanlarını ön plana çıxarmaq məqsədi daşıyır. Lakin İran üçün məsələ təkcə Yaxın Şərqlə məhdudlaşmır. Son illərdə Tehran Cənubi Qafqazı da öz təhlükəsizlik strategiyasının mühüm istiqamətlərindən biri hesab edir.**

İranın Ermənistanla münasibətlərini daha da dərinləşdirməsi Cənubi Qafqazda geosiyasi rəqabəti yeni mərhələyə daşıya bilər. Tehran üçün Ermənistan təkcə qonşu dövlət deyil, həm də regionda öz təsir imkanlarını qorumaq və alternativ nəqliyyat marşrutlarının formalaşmasına təsir göstərmək baxımından strateji əhəmiyyət daşıyır.

Məhz buna görə də Tehran İrəvanla siyasi, iqtisadi və hərbi əməkdaşlığı gücləndirməklə regionda formalaşan yeni geosiyasi reallıqlara təsir göstərməyə çalışır. Lakin İranın belə bir iddiasını reallaşdırması yalnız öz imkanlarından deyil, həm də Azərbaycan-Türkiyə tandemi, Rusiya, Qərb və digər regional aktorların atacağı addımlardan asılı olacaq.

Əgər İran İrəvanı daha açıq şəkildə siyasi, iqtisadi və təhlükəsizlik baxımından himayə etməyə başlasa, bu, regionda qüvvələr balansına təsirsiz ötüşməyəcək. Belə bir ssenari Azərbaycan-Ermənistan normallaşma prosesini çətinləşdirə, Zəngəzur dəhlizi ətrafında gərginliyi artıra və Tehran-Ankara-Bakı xəttində rəqabəti gücləndirə bilər.

Erməni mediası da yazır ki, Ermənistanla İran arasında münasibətlər son illərdə intensiv siyasi dialoqla müşayiət olunsa da, bu fəallıq hələ də real iqtisadi nəticələrə çevrilməyib. Tehrandakı “Hay Dat” komissiyasının rəhbəri İsak Yunanesyan bildirir ki, son 23-24 ildə Ermənistan və İran arasında ümumilikdə 132 ikitərəfli saziş imzalansa da, onların böyük əksəriyyəti kağız üzərində qalıb. Ermənistan-İran münasibətlərində diqqət çəkən problemlərdən biri də informasiya mübadiləsinin zəif olmasıdır. Bu siyasətin əsas məqsədlərindən biri də regionda yeni geosiyasi reallıqların İranın maraqlarına uyğun formalaşmasına nail olmaqdır.

Bununla belə, İranın bu iddiasının qarşısında ciddi maneələr mövcuddur. Azərbaycanın 44 günlük müharibədən sonra dəyişən mövqeyi, Türkiyənin regionda artan təsiri, eləcə də Qərb və Rusiyanın maraqları Cənubi Qafqazı çoxqütblü rəqabət məkanına çevirib. Belə şəraitdə heç bir dövlət, o cümlədən İran təkbaşına regionun təhlükəsizlik arxitekturasını müəyyən edə biləcək gücdə deyil.

Bu baxımdan, “qisas bayrağı” Tehranın siyasi iradəsini və iddialarını nümayiş etdirsə də, Cənubi Qafqazda “jandarm” rolunu reallığa çevirmək üçün təkcə sərt bəyanatlar və simvolik addımlar kifayət etmir. Bunun üçün iqtisadi güc, diplomatik imkanlar və regional aktorlarla rəqabətdə üstün mövqe tələb olunur. Mövcud geosiyasi şərait isə İranın bu hədəfə çatmasının kifayət qədər mürəkkəb olduğunu göstərir.



**Siyasi şərhçi Xəyal Bəşirovun fikrincə, İran Cənubi Qafqazda siyasi və iqtisadi proseslərə təsir etmək niyyətindədir:** “İrana elə gəlir ki, ABŞ-nin regiondakı planlarını poza bilər. Amma onun əvvəlki taqəti qalmayıb ki, layihələrə qarışa bilsin. İrandakı hakimiyyətin gücü özünün varlığını qorumağa çatır. O demək deyil ki, bölgəyə müdaxilə edə bilər. Ermənistanla münasibətlərdən də istifadə etməyə çalışır. İrəvan isə eyni anda regionun iki gücü ilə döyüşmək istəmir. Yəni onsuz da Rusiya ilə problemlər var, eyni vaxtda İranla gərginlik istəmir. Nəzərə alaq ki, Ermənistan iqtisadi dayaq axtarır. Hazırda İrəvanın təhlükəsizlik sahəsində yox, iqtisadi sektorda ciddi müttəfiqə ehtiyacı var ki, İran və Rusiyadan asılılıq azalsın”.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədlinin fikrincə, İran Ermənistanla münasibətlərə Cənubi Qafqazda təsir imkanlarını saxlamaq üçün yeganə çıxış kimi baxır. İranın regionda iqtisadi və siyasi maraqlarını həm də Ermənistan üzərindən həyata keçirdiyini deyən S.Əsədli hesab edir ki, Tehran müharibədən sonra öz “qabığını dəyişib” və yeni dövrə hazırlaşır:** “İran savaşdan məğlub çıxmadığını düşünür və buna görə Cənubi Qafqazda təzyiqlərini artıracağını hesablayır. Xüsusən də Zəngəzur dəhlizinin açılmasına əngəl olmaq üçün bəzi destruktiv hərəkətlərə yol verməsi istisna deyil. İran Ermənistandan bu logistika ilə bağlı pay qoparmaq istəyir. Çünki bu dəhliz İranı iqtisadi cəhətdən əhəmiyyətini azaldacaq. Məhz bu baxımdan İran regional məsələlərə reaksiya verir. Xüsusən də Ermənistanın hərəkətləri İranı narahat edir. Çünki Qərb bölgəyə bu ölkə üzərindən girişməyə çalışır”.

**Əsədli əlavə edib ki, İran ABŞ və İsraillə müharibədə tamamilə məğlub olmasa da, regional layihələrə müdaxilə gücündə deyil:** “Hazırda təbliğat o yöndədir ki, İran uduzmadı. Amma ABŞ İran rejimini xeyli zəiflətdi. Bundan sonra elə fiqur qalmadı ki, onunla öyünsünlər. Sadəcə, ideoloji sistemdir deyə vaxt udmağa fürsət qazandılar”.

Qeyd edək ki, İran və Ermənistan arasında iqtisadi əməkdaşlığın yeni mərhələyə keçəcəyi bildirilir. İran parlamentinin deputatı Ara Şahverdiyan Tehranda erməni jurnalistlərlə görüşündə bildirib ki, hazırda iki ölkə arasında ticarət dövriyyəsini illik 3 milyard dollara çatdırmaq üçün ciddi potensial mövcuddur. Onun sözlərinə görə, ötən il İran Prezidenti Məsud Pezeşkianın İrəvana səfəri zamanı tərəflər arasında mühüm razılaşmalar əldə olunub. Daha sonra bu razılaşmalar İran İslam Respublikasının vitse-prezidenti Purməhəmmədinin Ermənistana son səfəri zamanı da təsdiqlənərək əməkdaşlığın genişləndirilməsi istiqamətində yeni addımlar atılıb. Deputat qeyd edib ki, iqtisadi, ticarət, enerji və nəqliyyat sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi üçün hər iki tərəf fəal iş aparır və qarşıdakı dövrdə ikitərəfli ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artacağı gözlənilir.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Orta Asiya Qafqaza niyə yaxınlaşır?

## Dənizə çıxışı olmayan ölkələr Azərbaycan və Gürcüstana ümid edir




**Gürcüstanın baş naziri İrakli Kobaxidzenin Qazaxıstana bu yaxınlarda rəsmi səfəri zamanı Tiflis və Astana arasında strateji tərəfdaşlığın qurulmasına dair birgə bəyanat imzalanıb. Ayna.az yazır ki, bu səfər birdəfəlik diplomatik təşəbbüs deyil, Tiflisin Orta Asiya dövlətləri ilə əlaqələri möhkəmləndirmək üzrə ardıcıl siyasətinin davamıdır. Qazaxıstana səfərindən bir müddət əvvəl Kobaxidze ikitərəfli münasibətlər tarixində hökumət başçısı səviyyəsində Qırğızıstana ilk rəsmi səfərini etdi. Bişkekdə tərəflər siyasi dialoqu intensivləşdirmək, ticarət-iqtisadi əməkdaşlığı genişləndirmək və nəqliyyat əlaqələrini inkişaf etdirmək barədə razılığa gəldilər. Bu addımlar ardıcıllığı göstərir ki, Orta Asiya Gürcüstanın xarici siyasətinin əsas prioritetlərindən birinə çevrilib.**

Tərəfdaşlığın inkişafına maraq yalnız Tiflislə məhdudlaşmır. Qazaxıstan da Gürcüstanla əməkdaşlığın dərinləşməsindən əhəmiyyətli dərəcədə faydalanır. Qlobal logistikanın transformasiyası fonunda ixrac marşrutlarının şaxələndirilməsi Astana üçün xüsusilə vacibdir. Orta dəhlizdən istifadə Qara dəniz vasitəsilə Avropa bazarlarına geniş çıxışa, müəyyən nəqliyyat marşrutlarından asılılığın azaldılmasına və xarici ticarətdə dayanıqlığın artırılmasına imkan verir. Eyni zamanda Qazaxıstan müasir nəqliyyat infrastrukturunun inkişaf etdirilməsində, yük daşımalarının rəqəmsallaşdırılmasında və daha səmərəli multimodal logistika zəncirlərinin yaradılmasında maraqlıdır.

Qırğızıstan üçün əməkdaşlıq perspektivləri də az əhəmiyyət kəsb etmir. Dənizə çıxışı olmasa da, respublika regional nəqliyyat layihələrinə daha fəal inteqrasiya olunmağa, ixrac imkanlarını artırmağa və xarici investisiyaları cəlb etməyə çalışır. Gürcüstanla əməkdaşlığın genişləndirilməsi Bişkekə Mərkəzi Asiyanı Avropa bazarları ilə birləşdirən beynəlxalq nəqliyyat zəncirlərində iştirak etmək üçün əlavə imkanlar açır.

Eyni zamanda bu iddialı planların həyata keçirilməsi Orta dəhlizin arxitekturasında mərkəzi yer tutan Azərbaycan olmadan mümkün olmazdı. Bakı Xəzər dənizi ilə Cənubi Qafqaz arasında əlaqəni təmin edir və marşrutu vahid nəqliyyat sisteminə çevirir. Bakı-Tiflis-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər dənizi üzərindən bərə xidmətinin inkişafı və nəqliyyat infrastrukturunun genişmiqyaslı modernləşdirilməsi Azərbaycanın regionun əsas logistika mərkəzlərindən biri kimi mövqeyini gücləndirmək üzrə ardıcıl siyasətinin nəticəsidir. Buna görə də Gürcüstanın Orta Asiya ölkələri ilə əməkdaşlığının inkişafı Tiflis və Bakı arasında strateji tərəfdaşlıqdan ayrı nəzərdən keçirilə bilməz.

Qazaxıstan və Qırğızıstan üçün Azərbaycan-Gürcüstan ittifaqı Qara dənizə və daha sonra Avropa bazarlarına etibarlı nəqliyyat körpüsüdür. Koordinasiyalı tarif siyasəti, rəqəmsal gömrük prosedurlarının inkişafı, dəmir yolu infrastrukturunun modernləşdirilməsi və liman əməliyyatlarının əlaqələndirilməsi bütün marşrutun rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda Türkiyənin fəal iştirakı yüklərin Avropa bazarlarına çıxışını təmin edir, Çin və Avropa İttifaqı tərəfindən artan maraq isə Orta dəhlizin ümumavrasiya nəqliyyat sistemində artan əhəmiyyətinə töhfə verir.

Gürcüstanın strategiyasının əsas aspektlərindən biri Çinlə dinamik tərəfdaşlıqdır və bu tərəfdaşlıq 2025-ci ildə strateji əməkdaşlıq səviyyəsinə çatıb. Gürcüstan Avrasiyada Çinlə sərbəst ticarət müqaviləsi imzalayan ilk ölkə olaraq qalır və bu, “Bir kəmər, bir yol” təşəbbüsündə fəal iştirakı ilə birlikdə Orta dəhliz boyunca yük daşımalarının ikiqat artmasına səbəb olub: 2024-cü ildə Çin və Gürcüstan arasında tranzit həcmi 15 dəfə, 2025-ci ilin ilk səkkiz ayında isə konteyner daşımaları 71% artıb. Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmir yolu operatorları Transxəzər marşrutunun inkişafı üçün rəsmi olaraq koordinasiyanı müəyyən edən Çin CRCT korporasiyası ilə böyük bir müqavilə imzalayıblar.

Gürcüstanın ardıcıl diplomatik fəaliyyəti göstərir ki, Tiflisin Avrasiya nəqliyyat əlaqələrinin inkişaf etməkdə olan sistemində ən əlverişli mövqeyi təmin etməyə çalışmasıdır. Qazaxıstanla strateji tərəfdaşlığı, Qırğızıstanla genişlənmiş əməkdaşlığı və Azərbaycanla müttəfiqliyinin daha da möhkəmləndirilməsi Cənubi Qafqaz və Orta Asiya arasında yaxınlaşmaya doğru uzunmüddətli tendensiyanı əks etdirir. Mövcud temp davam edərsə, region Asiya ilə Avropa arasında əsas tranzit məkanı kimi mövqeyini əhəmiyyətli dərəcədə gücləndirəcək və Gürcüstan, Azərbaycan və Orta Asiya dövlətləri arasında əməkdaşlıq bütün Avrasiya regionunun iqtisadi sabitliyində və qarşılıqlı əlaqəsində əsas amilə çevriləcək.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 26 (8875) 8 iyul 2025



# Qərbi Azərbaycan İcmasında toplantı

## Ağsaqqallar Şurasının 2026-cı ilin ilk yarımilliyinə dair fəaliyyəti necə qiymətləndirilib?

**Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının 2026-cı ilin ilk yarımilliyinin yekunlarına həsr olunmuş hesabat iclası keçirilib.**

İclası giriş sözü ilə açan Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov şuranın fəaliyyət istiqamətləri, qarşıya qoyulan hədəflər və ilk yarımillik ərzində görülən işlər barədə ətraflı məlumat verib.

Əhliman Əmiraslanov çıxışında qeyd edib ki, Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, tarixi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən fəaliyyətlər ardıcıl şəkildə davam etdirilir. O, Ağsaqqallar Şurasının cəmiyyət daxilində milli-mənəvi dəyərlərin təbliği, ictimai həmrəyliyin möhkəmləndirilməsi və Qərbi Azərbaycana qayıdış ideyasının təşviqində mühüm rol oynadığını vurğulayıb.

Hesabat yığıncağında Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Vedi rayon İcmasının sədri, akademik Vaqif Şadlinski rəhbərlik etdiyi rayon icmasında ilk yarımillik ərzində həyata keçirilən görüşlər, təşkilati tədbirlər və ictimai fəallığın artırılması istiqamətində görülən işlərdən bəhs edib. O, həyata keçirilən fəaliyyətlərin Qərbi Azərbaycan ideyasının təbliği və icma üzvləri arasında birliyin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının üzvü, Amasiya rayon İcmasının sədri, akademik Abel Məhərrəmov çıxışında rəhbərlik etdiyi icmada ilk yarımillik dövr ərzində keçirilən elmi görüşlər, maarifləndirmə tədbirləri və tarixi yaddaşın qorunmasına xidmət edən təşəbbüslər haqqında məlumat verib. O, Qərbi Azərbaycanın tarixi-mədəni irsinin araşdırılması və gələcək nəsillərə çatdırılmasının vacibliyini vurğulayıb.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının üzvü, Çəmbərək rayon İcmasının sədri, iqtisad elmləri doktoru, professor Əvəz Ələkbərov çıxışında ilk yarımillik ərzində təşkilati fəaliyyətin gücləndirilməsi, icma üzvləri ilə görüşlərin keçirilməsi və sosial-ictimai təşəbbüslərin həyata keçirilməsi istiqamətində görülən işlər barədə danışıb. O, qarşıdakı dövrdə fəaliyyətin daha da genişləndirilməsinin vacibliyini qeyd edib.

Daha sonra çıxış edənlər - Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının üzvü, pedaqogika üzrə elmlər doktoru, professor, İcmanın Binəqədi rayonu üzrə nümayəndəsi Həsən Bayramov, Ağsaqqallar Şurasının üzvü, professor Paşa Musayev (Qəlbinur), Ağsaqqallar Şurasının üzvü, əməkdar jurnalist, professor Etibar Babayev, və Ağsaqqallar Şurasının üzvü, filologiya elmləri doktoru, professor Aslan Bayramov ilk yarımillik ərzində həyata keçirilən elmi, ictimai, maarifçilik və media fəaliyyəti, Qərbi Azərbaycan həqiqətlərinin təbliği, milli-mənəvi dəyərlərin qorunması, tarixi yaddaşın gələcək nəsillərə ötürülməsi və gənclərlə iş istiqamətində görülən işlər barədə məlumat veriblər.

Sonda şuranın 2026-cı ilin ilk yarımilliyinə dair fəaliyyəti qənaətbəxş qiymətləndirilib, qarşıdakı dövrdə Ağsaqqallar Şurasının fəaliyyətinin daha da genişləndirilməsi, ictimai fəallığın artırılması, gənclərə işin gücləndirilməsi və Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq müstəvidə daha fəal şəkildə təbliği istiqamətində təkliflər səsləndirilib.

# YAP-ın altı rayon təşkilatında sədr dəyişdi

## Hakim partiyanın qurultayı payızda keçirilə bilər

**İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib, partiyanın bir neçə rayon təşkilatının sədri dəyişib. Bu barədə Yeni Azərbaycan Partiyasından məlumat verilib.**

Bildirilib ki, iclasda YAP Sədərək rayon təşkilatının sədri Arif Qasımovun, Şahbuz rayon təşkilatının sədri Rizvan Məmmədovun, Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyevin, Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Baladaşovun və Qusar rayon təşkilatının sədri David İbrahimxəlilovun təqaüd yaşına çatmaları ilə əlaqədar tutduqları vəzifədən azad olunmaları məsələsinə baxılıb və müvafiq qərarlar qəbul olunub.



Daha sonra İlqar İlyasovun partiyanın Qaradağ, Vüsalə Əliyevanın Sədərək, Nicat Ələkbərovun Şahbuz, Zamir Güvəndiyevin Şəmkir, Emil Tağıyevin Xaçmaz və Kamran Əmirovun Qusar rayon təşkilatına sədr təyin edilməsi məsələsinə baxılıb.

YAP sədrinin müavini Əli Əhmədov, İdarə Heyətinin üzvləri Hikmət Məmmədov və Azər Badamov çıxış edərək namizədliyi irəli sürülən şəxslərin bu vəzifəyə layiq olduqlarını bildirib və onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra müvafiq qərarlar qəbul olunub.

Yeni təyin olunmuş şəxslər göstərilən etimada görə partiyanın sədri, Prezident İlham Əliyevə dərin təşəkkürlərini ifadə edərək öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün çalışacaqlarını bildiriblər.

Yeri gəlmişkən, YAP-ın qurultayının martda keçiriləcəyi deyilirdi. Amma belə görünür ki, hakim partiyanın sayca VIII dan, VIII qurultayın də təşkilati və ideoloji baxımdan müəyyən yeniliklər gətirməsi gözləniləndir.

Ekspertlər qurultayda rəhbər orqanlarda yenilənmə, partiya proqramına əlavələr, nizamnamə islahatları və yeni strateji hədəflərin gündəmə gələ biləcəyini bildirirlər.

partiyanın qurultayında sürpriz dəyişikliklərin olacağı da gözlənilir. İlk növbədə Tahir Budaqovun Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması əsas göstərilərək YAP-ın Aparat rəhbəri postuna yeni şəxs təyin olunacaq. Partiya sədri vəzifəsindən sonra əsas post hesab olunan aparat rəhbəri vəzifəsinə veteran YAP-çılardan deyil, gənc partiya üzvlərindən birinin gətiriləcəyi deyilir.

Siyasi müşahidəçilərin fikrincə, yeni Aparat rəhbərinin seçimi YAP-ın qarşıdakı dövrdə qurultayı payızda olacaq. Mümkündür ki, YAP-ın ali tədbirinin keçirilməməsinə regional müharibənin də təsiri olsun.

Belə ki, YAP-ın sonuncu qurultayı 2021-ci il martın 5-də keçirilib. Nizamnaməyə əsasən, partiyanın qurultayı 5 ildən bir keçirilir. Qurultaylar adətən yalnız formal tədbir olmur - onlar həm siyasi kursun təsdiqi, həm də struktur və proqram yenilənməsi üçün əsas platformadır. Bu baxımdan, VIII qurultayın da...

Qurultay həm partiyanın siyasi kursunu bir daha təsdiqləyəcək, həm də struktur və proqram baxımından müəyyən yeniliklər gətirəcək. Belə ki, rəhbər orqanlara - İdarə Heyəti və Siyasi Şuraya yeni kadrlar gətirilə, gənc və region nümayəndələrinin sayı artırıla, o cümlədən partiya proqramına əlavələr, sosial-iqtisadi prioritetlər, regional inkişaf, rəqəmsal transformasiya və təhlükəsizlik siyasəti ilə bağlı yeni bəndlər daxil edilə bilər. Hakim təşkilati islahatlar və struktur yenilənməsi ilə birbaşa bağlı olacaq. Bu vəzifəyə təyin olunacaq şəxsə partiyanın daxili intizamının qorunması, regional təşkilatların fəaliyyətinin əlaqələndirilməsi və seçki proseslərinə hazırlıq baxımından mühüm rol tapşırılacaq.

Hakim partiyanın qurultayında Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevlə bağlı məsələ ayrıca müzakirə oluna bilər.

❑ **"Yeni Müsavat"**

# Yeni nazir müavinin dosyesi



Rüfət Hacıəliboyov

**Rüfət Hacıəlibəyov səhiyyə nazirinin müavini təyin edilib. Rüfət Hacıəlibəyov 2022-ci ilin iyul ayından son təyinatadək Azərbaycanın səhiyyə nazirinin səhiyyənin rəqəmsallaşdırılması məsələləri üzrə müşaviri vəzifəsində çalışıb. Bu müddət ərzində ölkənin elektron səhiyyə üzrə milli strategiyasının hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik edib, səhiyyə sisteminin rəqəmsal transformasiyası prosesinin əlaqələndirilməsini təmin edib.**

Səhiyyə nazirinin müavini kimi onun fəaliyyət istiqamətlərinə innovasiyaların tətbiqi, strateji idarəetmə, səhiyyənin rəqəmsallaşdırılması və tibbi statistika sahələri daxildir. Rüfət Hacıəlibəyov rəqəmsal transformasiya sahəsində 30 illik peşəkar təcrübəyə malik mütəxəssisdir. Uzunmüddətli fəaliyyəti ərzində korporativ və dövlət sektoru üçün mürəkkəb texnoloji layihələrin idarə edilməsindən başlayaraq, Azərbaycanda HP, Microsoft və SAP kimi aparıcı qlobal informasiya texnologiyaları şirkətlərinin yerli nümayəndəliklərinə rəhbərlik edib.

O, dövlət və korporativ səviyyədə uzunmüddətli informasiya texnologiyaları strategiyalarının hazırlanması və uğurla həyata keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Peşəkar fəaliyyətinin əsas istiqamətlərinə strateji planlaşdırma, böhran idarəçiliyi, eləcə də genişmiqyaslı institusional dəyişikliklər şəraitində kompleks layihələrin idarə olunması daxildir.

Rüfət Hacıəlibəyov əsas fəaliyyəti ilə yanaşı, Azərbaycanın rəqəmsallaşma sahəsində biznes və akademik mühitinin inkişafında da fəal iştirak edir. O, KOBİA yanında innovativ startapların inkişafı üzrə Ekspert Komissiyasının üzvü kimi fəaliyyət göstərib. 2017-ci ildən etibarən Bakı Mühəndislik Universitetinin Himayəçilər Şurasının üzvüdür.

Azərbaycan Respublikasında informasiya texnologiyalarının inkişafına verdiyi töhfələrə görə Prezidentin 2021-ci il tarixli Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif edilib.

Xatırladaq ki, səhiyyə naziri Teymur Musayevin 4 müavini var. Rüfət Hacıbəyovla yanaşı, İlqar Qasımov, Rasim İsmayılov və Nadir Zeynalov nazir müavinləridir.

YENİ MÜSAVAT
N 26 (8875) 8 iyul 2026

# Mühüm qanun layihələri parlamentin müzakirəsində

## 10 il müddətinə gömrük rüsumlarından azad ediləcəklər - deputatlar sənədi təsdiqlədi




**İyulun 7-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib.**

Öncə "Ümumi təhsil haqqında" Qanuna dəyişikliklər müzakirəyə çıxarılıb. Sənədlə bağlı Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov məlumat verib. Layihəyə əsasən, təhsilverənlər üçün geyimlə bağlı hüquqi əsas yaradılır. Onun məlumatına görə, təhsilalanlarla bağlı qanunvericilikdə nəzərdə tutulan dəyişiklik dövlət ümumi təhsil müəssisələrində artıq müəyyən edilmiş geyim tələblərinə riayət olunmasının hüquqi müstəvidə təsbit edilməsini nəzərdə tutur. Beləliklə, qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin əsas məqsədi dövlət ümumi təhsil müəssisələrində vahid idarəetmə yanaşmasının möhkəmləndirilməsi, təşkilati mədəniyyətin inkişaf etdirilməsi, məktəbdaxili nizam-intizamın daha da gücləndirilməsi, peşəkar iş mühitinin formalaşdırılması və təhsil prosesinin bütün iştirakçıları üçün daha səmərəli şəraitin yaradılmasıdır.

Qanun layihəsi səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

"Kraudfandinq haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə İqtisadi siyasət, sənaye, sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmiş innovativ fəaliyyətin dəstəklənməsinə dair qanun layihələri dövlətimizin yeni mərhələdə rəqəmsal və texnoloji inkişaf sahəsində təşəbbüslərini və strateji hədəflərini əks etdirir: "İqtisadi siyasət komitəsinin iclasında qanun layihələrinin geniş təqdimatı keçirilib. Aparılmış müzakirələr çərçivəsində səsləndirilən bəzi təklif və tövsiyələr hazırda qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılmaqdadır. İkinci oxunuşda bu barədə məlumat veriləcək". Komitə sədri deyib ki, bu layihələr mahiyyətcə ayrı-ayrı sənədlər deyil, əslində bir-biri ilə sıx bağlı olan, vahid innovasiya zəncirinin hüquqi təminatını yaradan inteqrə olunmuş qanunvericilik paketidir: "Bu səbəbdən də həmin layihələri birləşdirən vahid dövlət strategiyasını, innovasiyalar sahəsində qanunvericilik təşəbbüslərini 1-ci oxunuşun tələblərinə uyğun konseptual olaraq təqdim etmək istərdim. Bu kontekstdə hazırkı təqdimatla "qanun nəyi dəyişir" sualına deyil, "niyə bu qanunları qəbul edirik" sualına cavab verilməsini məqsədəuyğun hesab edirik. Təbii ki, hər şeydən əvvəl ölkəmizdə qurulmaqda olan vahid rəqəmsal inkişaf arxitekturasını vurğulamalıyıq. O, bir tərəfdən rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik üzrə fəaliyyət istiqamətlərini əhatə edir. Digər tərəfdən də bütöv bir sistem kimi rəqəmsal dövlət idarəçiliyini, rəqəmsal iqtisadiyyatı və rəqəmsal cəmiyyəti özündə birləşdirir". Komitə sədri deyib ki, əsas məqsəd ölkənin texnoloji potensialını gücləndirmək, innovasiyaya əsaslanan iqtisadi modelə keçidi sürətləndirmək və bu sahədə vahid dövlət siyasətini koordinasiyalı şəkildə həyata keçirməkdir: "İnnovasiyaların dövlət siyasətinin əsas istiqaməti olaraq elan edilməsi və müəyyənləşdirilməsi düşünülmüş, müasir çağırışları nəzərə alan uzunmüddətli strategiyadır. Strategiya dövlət siyasətini müəyyən edir, dövlət siyasəti innovativ iqtisadi modeli formalaşdırır, qanunvericilik isə həmin modeli dayanıqlı hüquqi sistemə çevirir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev rəqəmsal inkişafı dövlətimizin gələcəyini müəyyən edən mühüm amil kimi xüsusi vurğulayıb. Təqdim etdiyimiz qanun layihələri də məhz həmin strateji baxışın qanunvericilik müstəvisində həyata keçirilməsinə xidmət edir".

"Kraudfandinq haqqında" qanun layihəsi sadəcə növbəti hüquqi sənəd deyil. Əgər bu sahə bürokratik əngəllərə, inzibati süründürməçiliyə və bazarda müəyyən təcrübəsi olanların yaratdığı inhisarçılığa qurban verilməzsə, bu qanun ölkəmizin rəqəmsal iqtisadiyyat ekosistemində, xüsusilə startapların və kiçik sahibkarlığın maliyyələşdirilməsində inqilabi dönüşün hüquqi təməlini qoyacaq. Bunu isə **deputat Razi Nurullayev** deyib: "Hamımıza məlumdur ki, yaxşı ideyası olan gənclərimiz və startaplarımız bankdan kredit almaq istəyəndə ağır girov tələbləri və yüksək faizlərlə üzləşirlər. Bu qanun isə onlara rəqəmsal platformalar vasitəsilə birbaşa insanlardan və investorlardan vəsait toplamaq, öz ideyalarını həyata keçirmək üçün alternativ maliyyə imkanı yaradır. Bu qanunun qəbulu ilə kapital bazarlarına çıxış daha əlçatan olacaq. Ümid edirəm ki, bu sahəyə həqiqətən də sərbəstlik veriləcək, əlavə maneələr yaradılmayacaq və sağlam rəqabət təmin olunacaq. Belə olan halda, artıq təkcə böyük şirkətlər və imkanlı investorlar deyil, cibində cəmi 100 manatı olan vətəndaş da perspektivli bir startapa yatırım edə, onun inkişafında pay sahibi ola biləcək. Bu, həm insanların yığımlarının iqtisadiyyata cəlb olunmasına, həm də yeni ideyaların daha sürətlə reallaşmasına ciddi töhfə verəcək".

Müzakirələrdən sonra layihə ilk oxunuşda təsdiqlənib.

İclasda "Gömrük tarifi haqqında" qanuna təklif edilən dəyişikliklər müzakirə olunub. Qanun layihəsinə əsasən, rəqəmsal texnologiyaların, o cümlədən süni intellekt texnologiyalarının və innovasiya məhsulunun hazırlanması, inkişaf etdirilməsi və tətbiqi fəaliyyətini həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar (investisiya təşviqi sənədini alan və ya texnologiyalar parkının rezidenti olan şəxslər istisna olmaqla) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəyi nəzərə alınmaqla verdiyi təsdiqedici sənədi əsasında siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə dəstləşdirici hissələrin, materialların və xammalın idxalı - 2026-cı il iyulun 1-dən 10 il müddətinə gömrük rüsumlarından azad ediləcək.

Qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

"Valyuta tənzimi haqqında" Qanuna və Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərə görə, rəqəmsal səyyahlara vergi güzəştləri olacaq. Bildirilib ki, rəqəmsal səyyah rəqəmsal texnologiyalar, süni intellekt texnologiyaları, kibertəhlükəsizlik və innovasiya sahəsində fəaliyyətini informasiya və kommunikasiya texnologiyaları vasitəsilə distant həyata keçirməklə, gəlirini xarici mənbələrdən əldə edən əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir. "Valyuta tənzimi haqqında" Qanuna təklif edilən dəyişikliyə əsasən, rəqəmsal səyyahlar tərəfindən xarici mənbələrdən əldə olunan xarici valyuta vəsaitlərinin (vergi öhdəliklərinin icrası şərtilə) müvəkkil banklardakı hesablarına mədaxili və Azərbaycan Respublikasından köçürülməsi zamanı valyuta tənzimi məqsədləri üçün məbləğ məhdudiyyəti tətbiq edilməyəcək.

"Banklar haqqında" Qanuna təklif edilən dəyişikliyə görə, rəqəmsal səyyahlara müvəkkil banklarda hesablar yalnız şəxsiyyəti təsdiq edən sənəd və imza nümunəsi vərəqəsi əsasında açılacaq.

Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, rəqəmsal səyyahın xarici qeyri-rezident müəssisə ilə (və ya sahibkarla) bağladığı əmək və ya mülki-hüquqi müqavilələr əsasında Azərbaycan Respublikasının ərazisində həyata keçirdiyi fəaliyyəti həmin qeyri-rezidentin Azərbaycan Respublikasında daimi nümayəndəliyi hesab olunmur.

Rəqəmsal səyyahın Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən və ya qeydiyyatda olan qeyri-rezident şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquqi müqavilə çərçivəsində əldə etdikləri, habelə Azərbaycan Respublikası mənbəyindən olmayan gəlirləri (gəliri ödəyən qeyri-rezident şəxsin həmin şəxslə qarşılıqlı surətdə asılı olan şəxs olmaması, gəliri ödəyən qeyri-rezident şəxsin benefisiar mülkiyyətçiləri arasında Azərbaycan Respublikasının rezidentlərinin üstünlük təşkil etməməsi və güzəştli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatda olan şəxs olmaması şərtilə) rəqəmsal səyyah statusunun qüvvədə olduğu müddətdən etibarən 20 (iyirmi) il müddətinə gəlir vergisindən azad olunacaq.

Qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

"Dövlət rüsumu haqqında" Qanuna dəyişikliklərə əsasən, Azərbaycanda hüquqi şəxslər kraudfandinq platformasının idarə edilməsi fəaliyyəti üzrə Mərkəzi Bankın reyestrinə daxil edilmək üçün 2750 manat dövlət rüsumu ödəyəcəklər. Həmçinin Azərbaycanda kraudfandinq platforması operatorunun nizamnamə kapitalında mühüm iştirak payının əldə edilməsi Mərkəzi Bankın (AMB) razılığı əsasında mümkün olacaq. "Kraudfandinq haqqında" yeni qanun layihəsinə əsasən, payın əldə edilməsindən əvvəl operator icazə almaq üçün AMB-yə ərizə təqdim etməlidir.

Qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

**Parlamentin komitə sədri Fazil Mustafa Milli Məclisin plenar iclasında çıxış edərkən bildirib ki, Azərbaycanın dünyəvi dövlət prinsipinin qorunması ölkənin unitar dövlət quruluşunun qorunması qədər vacib məsələdir. Fazil Mustafa son dövrlər xüsusilə cənubdan, qərbdən və azərbaycanlıların yaşadığı müxtəlif xarici ölkələrdən bu prinsipə mənfi təsir göstərən meyllərin müşahidə olunduğuna diqqət çəkərək bildirib ki, bu cür hallara artıq ölkə daxilində də rast gəlinir. Deputat bir neçə gün əvvəl keçirilən qaydasız döyüş yarışını nümunə göstərərək bildirib ki, Azərbaycanı təmsil edən idmançı meydana milli musiqi əvəzinə mərsiyə sədaları altında çıxıb, zalı da həmin sədalara qoşaraq dini ideoloji təbliğat aparıb:** "Son zamanlar cənubda, qərbdə azərbaycanlıların yaşadığı müxtəlif ölkələrdə çox mənfi istiqamətlərdə Azərbaycana təsir göstərilir. Hətta Azərbaycanın özündə belə bu məsələnin qorunmasına həssaslığımız yetərincə deyil. Adicə bu yaxınlarda qaydasız döyüş üzrə bir idman yarışı keçirildi. Baxırsan ki, Azərbaycanı təmsil edən idmançı artıq uvertüra ilə, cəngi sədaları altında yox, mərsiyə sədaları altında meydana çıxır. Beləliklə özünün dini ideoloji təbliğatını aparır. Bura gələndə də Azərbaycan bayrağı əvəzinə, hansısa ölkələrdə populyar olan dini ideoloji şüarlar səsləndirir. Biz hamımız isə bunu sakitcə müşahidə edirik".

**Ardınca F.Mustafa deyib ki, bu cür halların artması gələcəkdə Azərbaycanın dünyəvi dövlət mahiyyətinin və prinsiplərinin zədələnməsinə səbəb ola bilər. O əlavə edib ki, informasiya qanunvericiliyində rəqəmsal müdafiə texnologiyaları ilə bağlı müddəalar hazırlanarkən dünyəvi dövlət prinsipinin qorunması da əsas istiqamətlərdən biri kimi nəzərə alınmalıdır:** "Konstitusiyada Azərbaycan dövlətinin prinsipləri əks olunub. Bunlardan biri Azərbaycanın dünyada unitar dövlət olması prinsipidir".

Müzakirələrin yekununda spiker bildirib ki, növbəti iclas 10 iyulda keçiriləcək.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 26 (8875) 8 iyul 2026

# Bakı-Moskva qatarının "bəxti" açıla bilər

## İqtisadçı deyir ki, əsas hədəf logistik imkanların səmərəliliyinin artırılmasıdır, gələcəkdə isə...

**Azərbaycan, Rusiya və İran arasında dəmir yolu sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı ötən həftə keçirilən görüşlər və imzalanan protokol yeni müzakirələrə səbəb olub. Rəsmi açıqlamalarda əsas diqqət "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafına, yükdaşımalarının artırılmasına və rəqəmsal həllərin tətbiqinə yönəlsə də, bu əməkdaşlığın gələcəkdə Bakı-Moskva sərnişin qatarının yenidən fəaliyyətə başlamasına zəmin yarada biləcəyi barədə fikirlər də səslənir.**

Uzun illər Azərbaycanla Rusiya arasında ən populyar nəqliyyat marşrutlarından biri hesab edilən Bakı-Moskva qatarı minlərlə insanın seçim etdiyi nəqliyyat vasitəsi olub. Xüsusilə Rusiyada yaşayan azərbaycanlılar, tələbələr, turistlər və iş adamları üçün bu marşrut həm iqtisadi, həm də rahat səyahət imkanı yaradırdı. Lakin COVİD-19 pandemiyası dövründə beynəlxalq sərnişin daşımalarının dayandırılması ilə bu xətt də fəaliyyətini dayandırdı və sonrakı illərdə yalnız yükdaşımalar əvvəlki tempdə davam etdirildi.




İndi isə ADY rəhbərliyinin Rusiyaya səfəri zamanı aparılan danışıqlar ictimai müzakirələrdə mövzunu yenidən gündəmə gətirib. Görüşlərdə Azərbaycan, Rusiya və İran dəmir yolu administrasiyaları "Şimal-Cənub" dəhlizinin imkanlarının genişləndirilməsi, yük axınının artırılması, Astara terminalının potensialının yüksəldilməsi və marşrut boyunca rəqəmsal idarəetmə sistemlərinin tətbiqini müzakirə ediblər. Bu məsələlər ilk baxışdan yalnız yükdaşımalarına aid görünsə də, nəqliyyat mütəxəssisləri hesab edirlər ki, yaradılan yeni infrastruktur və koordinasiya gələcəkdə sərnişin daşımalarının bərpası üçün də əlverişli zəmin formalaşdıra bilər.

Aydındır ki, beynəlxalq sərnişin qatarının yenidən fəaliyyətə başlaması üçün ilk növbədə iki ölkə arasında siyasi razılaşma olmalıdır. Bununla yanaşı, sərhəd və gömrük prosedurlarının sadələşdirilməsi, pasport nəzarətinin təşkili, təhlükəsizlik məsələlərinin razılaşdırılması və marşrutun iqtisadi səmərəliliyinin hesablanması da vacib şərtlər sırasındadır. Son illərdə beynəlxalq nəqliyyat marşrutlarında baş verən dəyişikliklər də bu ehtimalı gücləndirir. Avrasiya məkanında alternativ logistika dəhlizlərinə marağın artması Azərbaycanı regionun əsas tranzit mərkəzlərindən birinə çevirib. Ölkə həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyi üçün dəmir yolu infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən biri hesab olunur.

Bakı-Moskva qatarının yenidən işə düşməsi təkcə iki ölkə arasında nəqliyyat əlaqələrinin bərpası demək olmayacaq. Bu marşrut turizm, ticarət və humanitar əlaqələrin genişlənməsinə də töhfə verə bilər. Xüsusilə hava nəqliyyatı ilə müqayisədə daha sərfəli qiymətə səyahət etmək istəyən sərnişinlər üçün dəmir yolu yenidən ciddi alternativə çevrilə bilər. Böyük həcmdə baqaj daşımaq imkanı da bu nəqliyyat növünün üstünlüklərindən biri sayılır.

Bütün bunları nəzərə aldıqda demək olar ki, Azərbaycan, Rusiya və İran arasında imzalanan son əməkdaşlıq sənədi sərnişin qatarlarının açılması barədə qərar olmasa da, bu istiqamətdə mühüm siqnal hesab oluna bilər.

**İqtisadçı Eldəniz Əmirov mövzu ilə bağlı "Yeni Müsavat"a bildirib ki, imzalanan sənədi birbaşa Bakı-Moskva sərnişin qatarının bərpasına ciddi təkan verəcək qərar kimi qiymətləndirmir:** "Çünki burada əsas diqqət logistika və yükdaşıma məsələlərinə yönəlib. Doğrudur, bu qərar gələcəkdə sərnişin qatarının bərpası ilə bağlı proseslərə başlamaq üçün texniki və institusional zəmin yaradır, yeni bunu müsbət bir siqnal kimi qəbul etmək olar. Eyni zamanda Azərbaycan Dəmir Yolları" QSC-nin açıqlamasında da bu məqama toxunulur. Sənəddə "Şimal-Cənub" nəqliyyat dəhlizi, Astara terminalı və yük axınları kimi istiqamətlərin xüsusi vurğulanması onu göstərir ki, əsas məqsəd Azərbaycanın bir tranzit ölkə olaraq logistik imkanlarından yararlanmaq və bu kontekstdə ölkənin iqtisadi əhəmiyyətini artırmaqdır. Hazırkı mərhələdə söhbət logistik imkanların səmərəliliyinin artırılmasından gedir. Təbii ki, bu səmərəlilik yüksəldikcə və üç ölkənin daxili strukturları (müvafiq administrasiyaları) arasında koordinasiya gücləndikcə sərhəd-keçid məntəqələrinin fəaliyyətində, həmçinin qrafik və texniki idarəetmə məsələlərində bir çox uğurlu irəliləyişlər əldə olunacaq".

**İqtisadçı hesab edir ki, bu müsbət tendensiya gələcəkdə yükdaşımalarla paralel olaraq, sərnişin daşımalarının da bərpası və bu sahədə dinamik inkişafın təmin edilməsi üçün real zəmin yaradır:** "Bakı-Moskva qatarının iqtisadi səmərəliliyini təmin edən ən vacib amil sərnişin tələbatıdır. Bu tələbatın sadəcə müvəqqəti və ya dəyişkən deyil, məhz daimi və sabit olması layihənin iqtisadi baxımdan özünü doğrultması üçün əsas şərtdir. Əgər bu marşrut açılarsa, ilk aylarda kəskin bir tələbatın yaranacağı şəksizdir. Çünki quru sərhədlərinin bağlı qalması sərnişin axınında bir növ "yığılmış təzyiq" effekti yaradıb. Qatar xətti fəaliyyətə başlayacağı təqdirdə, Rusiyada yaşayan soydaşlarımız, tələbələr, müxtəlif ailələr və daha büdcəli səyahətə üstünlük verənlər bu marşrutdan aktiv şəkildə istifadə edəcəklər. Lakin burada əsas sual doğuran məqam budur, bu yüksək tələbat və aktivlik nə qədər uzunmüddətli olacaq? Əgər tələb sabitləşərsə, bu layihə iqtisadi baxımdan səmərəli olacaq. Layihənin Azərbaycana təsirinə gəldikdə isə, bunun ölkəmiz üçün faydalı olacağı birmənalıdır. Xüsusilə Azərbaycan və Rusiya arasındakı münasibətləri vətəndaş faktoru, iqtisadiyyat, yükdaşımalar, turizm və digər istiqamətlər kontekstindən nəzərdən keçirdikdə, bu əməkdaşlığın effektivliyi aydın görünür. Digər tərəfdən, dəmir yolu sektorunun fəaliyyətində - istər xidmət keyfiyyəti və baza infrastrukturunun təkmilləşdirilməsi, istərsə də bu sahədə çalışan vətəndaşların rifahı baxımından ciddi canlanma gözlənilir. Həmçinin iki ölkə arasındakı ticarət dövriyyəsinin və xidmət sahələrinin inkişafı da bu müsbət dinamikanı dəstəkləyir".

**İqtisadçı vurğulayıb ki, layihənin ümumi iqtisadi təsiri olduqca müsbətdir. Bununla belə, Bakı-Moskva qatarının açılmasının hər iki ölkənin iqtisadiyyatına ciddi və böyük bir müsbət təsir göstərəcəyini gözləmək tam doğru deyil:** "Lakin iqtisadi tərəflərdən fərqli olaraq, bu addımın həm Azərbaycan, həm də Rusiya vətəndaşları üçün sosial baxımdan müsbət tərəfləri daha çox olacaq. Xüsusilə Azərbaycan kontekstindən yanaşsaq, sərnişin qatarının fəaliyyətə başlaması və gediş-gəlişin təmin edilməsi vətəndaşlarımız üçün çoxdan gözlənilən və arzuolunan bir addımdır. Əgər hər hansı bir proses birbaşa vətəndaşın rifahına və istəyinə xidmət edirsə, deməli, onun sosial səmərəsi və faydası olduqca yüksəkdir".

**❑ Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Azərbaycandan gedənlərin sayı artır

## Sosioloq bildirib ki, ilk baxışda bu, problem kimi görünsə də, müəyyən mənada normal prosesdir

**Azərbaycanda bir çox gənc xaricdə yaşamağı və işləməyi daha yaxşı gələcək üçün çıxış yolu kimi görür. Xüsusilə iş imkanları, sosial şərait, təhsil və həyat keyfiyyəti ilə bağlı gözləntilər bu düşüncəni daha da gücləndirir. Sosial şəbəkələrdə paylaşılan xarici həyat görüntüləri də gənclərin qərarlarına təsir edən əsas amillərdən biri sayılır.**



Bəs gənclər niyə gələcəklərini öz ölkələrində deyil, xaricdə qurmağa çalışırlar? Xaricdə həyat həqiqətən göründüyü qədər rahatdır? Azərbaycanda gəncləri ölkədə saxlamaq üçün nə dəyişməlidir?

Mövzu ilə bağlı "Azpolitika"ya açıqlama verən **sosioloq Elçin Bayramlı** bildirib ki, son dövrlərdə bir çox gənclər xarici ölkələrdə təhsil və iş üçün daha geniş imkanlar gördüklərinə görə həmin ölkələrə üz tuturlar.

**Onun sözlərinə görə, bu, ilk baxışda problem kimi görünsə də, müəyyən mənada normal prosesdir:** "Dünyanın müxtəlif ölkələri arasında təhsil, iş və karyera ilə bağlı miqrasiya axını mövcuddur. Çünki heç bir ölkədə bütün imkanlar eyni səviyyədə deyil. Bəzi ölkələr texnologiya sahəsində, bəziləri təhsildə, digərləri isə sosial və iqtisadi imkanlarda daha üstün mövqedədir. İnkişaf etmiş ölkələrdən də başqa ölkələrə gənclərin axını müşahidə olunur. Gənclər daha yaxşı karyera və fərqli həyat imkanları üçün xaricə gedirlər.

Azərbaycandan da xaricə üz tutan gənclərin sayı kifayət qədərdir. Bəzi hallarda gənclər öz bacarıq və istedadlarını ölkə daxilində reallaşdırmaq üçün lazımi şərait tapa bilmirlər. Məsələn, müəyyən sahələrdə istehsalat, texnologiya, elmi imkanlar və ya yüksək gəlir səviyyəsi yetərli olmur. Bu səbəbdən gənclər iqtisadi, elmi, sosial və texniki baxımdan daha inkişaf etmiş ölkələrə üz tuturlar".

**Sosioloq hesab edir ki, Azərbaycanda gənclərin bir çoxu öz potensialını tam şəkildə reallaşdıra bilmir:** "Müxtəlif sahələrdə problemlər mövcuddur. Bəzi sənaye və ixtisas sahələrində təhsil almış gənclər iş tapa bilmirlər, mövcud vakansiyalar isə olduqca məhduddur. Bu səbəbdən əmək bazarında həmin ixtisaslara tələbat aşağı səviyyədə qalır.

Azərbaycanda gənclərin öz istedad və bacarıqlarını ölkənin inkişafına yönəltməsi üçün xüsusi dövlət proqramları hazırlanmalıdır. Bacarıqlı və istedadlı gənclər müəyyən edilərək startap layihələrinə cəlb olunmalı, innovativ ideyaların həyata keçirilməsinə və istehsalata tətbiqinə dəstək verilməlidir. Bunun üçün müxtəlif istiqamətlər üzrə klubların və yaradıcı platformaların yaradılması məqsədəuyğun olardı. Məsələn, ixtiraçılar klubu və digər innovasiya mərkəzləri fəaliyyət göstərə bilər".

O əlavə edib ki, Azərbaycanda sənayenin və elm tutumlu sahələrin inkişafı sürətləndirilməli, müasir texnologiyalar və süni intellekt kimi istiqamətlərdə yeni müəssisələr yaradılmalıdır: "Bu, gənclərin özlərini ölkə daxilində reallaşdırmasına imkan verər. Eyni zamanda innovativ ideyaların maliyyələşdirilməsi mexanizmləri də formalaşdırılmalıdır. Çünki bəzi gənclərin ideyalarına ölkə daxilində diqqət ayrılmır və onlar həmin layihələri xarici şirkətlərə təqdim edirlər. Nəticədə layihələr xaricdə maliyyələşdirilərək həyata keçirilir.

"Beyin axını"nın qarşısını almaq üçün dövlət səviyyəsində ciddi proqramlar hazırlanmalı və həyata keçirilməlidir. İstedadlı və intellektual gənclərin potensialı Azərbaycana yönəldilməli, onların fəaliyyəti ölkənin inkişafına xidmət etməlidir".

# Azərbaycana gətirilən gizli kameraların sirri

## Bu cür məhsulların satışı və istifadəsi qanunidirmi?

**Azərbaycanda gizli kameraların satışı və istifadəsi qanunla qadağan olunub. Amma sosial şəbəkələrdə mini kameraların satışı ilə bağlı reklamlara tez-tez rast gəlinir. Məhsuldan da aydın görünür ki, bu qurğular əsasən gizli çəkilişlərin həyata keçirilməsi üçün nəzərdə tutulur. Mütəxəssislərin fikrincə, texnologiyanın sürətli inkişafı ilə birlikdə müşahidə vasitələrinin də ölçüləri kiçilib, imkanları isə xeyli artıb. Bir neçə santimetr ölçüsündə olan kameralar yüksək keyfiyyətli görüntü çəkə, səsi yaza və əldə olunan məlumatları internet vasitəsilə başqa məkana ötürə bilir. Bu isə onların qanunsuz dinləmə, şantaj, şəxsi məlumatların oğurlanması və digər cinayət məqsədləri üçün istifadəsini asanlaşdırır.**



Bəs bu cür kameraların satışı və istifadəsi qanunidirmi?

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** “Yeni Müsavat”a deyib ki, son illər texnologiyanın sürətli inkişafı hüquq-mühafizə orqanları qarşısında yeni çağırışlar yaradıb: “Azərbaycan qanunvericiliyi gizli şəkildə informasiya əldə etmək üçün xüsusi hazırlanmış texniki vasitələrin dövriyyəsinə və istifadəsinə təsadüfi deyil ki, ciddi məhdudiyyətlər qoyur. Burada əsas məsələ kameranın ölçüsü deyil, onun təyinatı və kamuflyaj olunmuş formada insanların xəbəri olmadan məlumat toplamaq üçün hazırlanmasıdır. Məsələn, adi təhlükəsizlik kamerası, avtomobil videoregistratoru və ya mobil telefonun kamerası qanunsuz hesab edilmir. Ancaq qələm, eynək, divar saatı, elektrik adapteri, düymə, avtomobil açarı və ya digər məişət əşyası formasında gizlədilmiş çəkiliş qurğuları artıq xüsusi texniki vasitə kimi qiymətləndirilə bilər. Belə vasitələrin qanunsuz satışı, əldə edilməsi və istifadəsi Azərbaycan qanunvericiliyi ilə qadağandır”.

**Natiq Ələsgərov deyib ki, kamuflyaj olunmuş qurğular daha çox ailədaxili mübahisələrdə, iş yerlərində əməkdaşların gizli izlənilməsi, biznes rəqabətində məlumat toplamaq, şantaj, şəxsi həyatın izlənilməsi, habelə müxtəlif cinayət xarakterli məqsədlər üçün istifadə olunur:** “Bəzi hallarda şəxslər bu cihazları təhlükəsizlik məqsədilə aldıqlarını bildirsələr də, onların gizli məlumat toplamaq üçün nəzərdə tutulmuş texniki vasitə olması hüquqi qiymətləndirmə zamanı əsas meyar olaraq qalır. Sosial şəbəkələrdə və müxtəlif internet platformalarında belə cihazların açıq şəkildə reklam olunması isə onların qanuni olması anlamına gəlmir. İnternetdə hər hansı məhsulun sərbəst satılması onun Azərbaycan qanunvericiliyinə uyğun dövriyyədə olması demək deyil. Bir çox hallarda satış elanları xarici platformalar üzərindən yerləşdirilir və onların inzibati qaydada aşkarlanaraq bloklanması müəyyən vaxt tələb edir. Ən çox müzakirə olunan məsələlərdən biri də bu qurğuların ölkəyə necə gətirilməsidir. Xarici internet mağazalarından fərdi sifarişlə alınan məhsullar da gömrük nəzarətindən keçir. Gömrük orqanlarında risk analiz sistemi və texniki nəzarət vasitələri mövcuddur. Əgər bağlamada gizli şəkildə informasiya toplamaq üçün nəzərdə tutulmuş xüsusi texniki vasitə aşkarlanarsa, həmin məhsulun ölkəyə buraxılmasına icazə verilməyə və materiallar hüquq-mühafizə orqanlarına göndərilə bilər. Vətəndaşların bilməli olduğu mühüm məqam ondan ibarətdir ki, "mən qanunu bilmirdim" arqumenti əksər hallarda hüquqi məsuliyyəti aradan qaldırmır. Şəxs sifariş etdiyi məhsulun texniki xüsusiyyətlərini və təyinatını əvvəlcədən araşdırmağa borcludur. Xüsusilə də məhsulun reklamında onun gizli çəkiliş və ya gizli dinləmə üçün nəzərdə tutulduğu açıq şəkildə göstərilirsə, sonradan məlumatsızlıq iddiası hüquqi baxımdan inandırıcı hesab edilmir. Gizli kameraların qanunsuz satışı və istifadəsi şəxsi həyatın toxunulmazlığı hüququnun pozulmasına səbəb olur və ciddi hüquqi məsuliyyət yaradır. Azərbaycan Konstitusiyası hər bir vətəndaşın şəxsi və ailə həyatının toxunulmazlığını təmin edir. İnsanların razılığı olmadan onların şəxsi məkanında gizli çəkiliş aparılması bu hüququn pozulması kimi qiymətləndirilə bilər. Texnologiyanın inkişafı ilə yanaşı, vətəndaşların rəqəmsal hüquqlarının qorunması da böyük əhəmiyyət kəsb edir. Məhz buna görə dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da gizli müşahidə vasitələrinin qanunsuz istifadəsinə qarşı sərt hüquqi mexanizmlər tətbiq edilir. Cihazın kiçik olması onu avtomatik olaraq qanunsuz etmir. Əsas meyar onun gizli məlumat toplamaq məqsədilə kamuflyaj olunması və istifadə edilməsidir. Məsələn, qələm formasında kamera və ya divar saatına yerləşdirilərək, eləcə də eynək və ya düymə formasında çəkiliş aparan qurğular insanların xəbəri olmadan şəxsi həyatın izlənilməsi üçün istifadə olunduqda qanun pozuntusu hesab edilə bilər".

Xatırladaq ki, Nazirlər Kabinetinin 15 avqust 2000-ci il tarixli 139-6 nömrəli qərarının 20-ci bəndinə əsasən, eni, uzunluğu və qalınlığı 50 mm-dən az olan, video və ya audio məlumatların gücləndirilməsi, işlənməsi, yazılması və saxlanılması üçün nəzərdə tutulan xüsusi texniki vasitələrin satış məqsədi olmadan qanunsuz əldə edilməsinə görə məsuliyyət yaranır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 302.3-cü maddəsinə əsasən, gizli şəkildə informasiya almaq üçün nəzərdə tutulmuş texniki vasitələrin qanunsuz olaraq istehsalı, satışı və ya istifadəsi 2000 manatdan 5000 manatadək cərimə və ya 3 ilədək azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Ev qiymətinə maşın nömrəsini kimlər alır?

## Elanlarda ən bahalı dövlət nömrəsi 600 min, ən ucuzu isə 80 min manat təşkil edir

**600 min manata Bakıda ən yaxşı yerdən mənzil, lüks avtomobil və ya gəlir gətirən kommersiya obyekti almaq olar. Ancaq Azərbaycanda elə dövlət qeydiyyat nişanı var ki, sahibi onu məhz bu qiymətə satmağa çalışır.**




Musavat.com-un Avtopro.az portalında yerləşdirilmiş nömrə elanları üzərində apardığı araşdırma göstərir ki, ölkədə avtomobil nömrələrinin alqı-satqısı artıq kiçik elan bazarı deyil, yüz minlərlə manatlıq dövriyyəsi olan ayrıca biznes sahəsinə çevrilib.

Araşdırdığımız elanlarda ən bahalı dövlət nömrəsi Az 10 MC 010 üçün 600 min manat, baha nömrələr sırasında ən ucuzu isə 80 min manat təşkil edir.

Bazar iştirakçılarının sözlərinə görə, belə nömrələri əsasən iri sahibkarlar, premium avtomobil sahibləri, şirkət rəhbərləri, ictimai tanınmış şəxslər və fərqlənmək istəyən imkanlı şəxslər alır. Bəzi hallarda isə məqsəd istifadə deyil, gələcəkdə daha baha satmaqdır. Yəni dövlət nömrəsi daşınmaz əmlak və ya qızıl kimi investisiya alətinə çevrilir.

Azərbaycanda bahalı kateqoriyasında olan dövlət qeydiyyat nişanlarının qiymətlərinin müəyyən edilməsi mexanizmi yayğındır. Qiymət bazarın özü tərəfindən formalaşır. Satıcı istədiyi məbləği yazır, alıcı isə həmin məbləği ödəməyə hazır olub-olmamasına qərar verir. Nəticədə bəzi nömrələr üçün 100 min, 200 min, hətta 600 min manat tələb olunur.

Avtomobil nömrələrinin alqı-satqısı təkcə Azərbaycana xas deyil. Lakin əksər ölkələrdə bu bazar dövlət tərəfindən tənzimlənir və əsas gəlir büdcəyə yönəlir. Məsələn, Ermənistanda xüsusi tələbat olan dövlət nömrələri Daxili İşlər Nazirliyinin elektron hərrac sistemi vasitəsilə satılır. İstənilən şəxs elektron hərracda iştirak edə bilir. Bu, tam rəsmi və qanunla tənzimlənən mexanizmdir. Hazırda bəzi prestijli nömrələrin başlanğıc qiyməti 10-15 milyon dram - təxminən 25-40 min ABŞ dolları təşkil edir və hərrac zamanı daha da yüksələ bilir.

Gürcüstanda da fərdi və xüsusi kombinasiyalı nömrələr dövlət tərəfindən müəyyən edilmiş rüsumlarla verilir. Burada qiymətlər əsasən inzibati tariflər əsasında formalaşır və Azərbaycandakı kimi yüz minlərlə manatlıq ikinci bazar demək olar ki, yoxdur.

Avropanın ən inkişaf etmiş nömrə bazarı Böyük Britaniyadadır. Burada hər il minlərlə xüsusi nömrə rəsmi hərraca çıxarılır. Sonradan həmin nömrələr tam qanuni şəkildə ikinci bazarda da alınıb-satıla bilir. Bəzi nadir kombinasiyalar on minlərlə, hətta yüz minlərlə funt sterlinqə satılsa da, bu satışlar tam şəffaf hərrac mexanizmi ilə həyata keçirilir.

Almaniya, Avstriya, Belçika, Niderland, Polşa və digər Avropa ölkələrində vətəndaş müəyyən rüsum ödəməklə istədiyi boş kombinasiyanı seçə bilir. Lakin burada dövlət nömrəsi adətən spekulyasiya obyektinə çevrilmir və qiymətlər dövlət tərəfindən tənzimlənən inzibati rüsumlarla məhdudlaşır.

Azərbaycan nömrə bazarının əsas özəlliyi ondan ibarətdir ki, burada bahalı nömrələrin dəyəri əsasən ikinci bazarda formalaşır. Yəni dövlət nömrəsi əldə edildikdən sonra fiziki şəxslər tərəfindən daha yüksək qiymətə satışa çıxarılır. Nəticədə ən böyük gəliri çox vaxt dövlət deyil, həmin nömrələri alıb sonradan yenidən satan şəxslər əldə edirlər. Bu isə faktiki olaraq dövlət qeydiyyat nişanları üçün ayrıca kommersiya bazarı yaradıb.

Musavat.com-un araşdırdığı elanlarda rast gəlinən 600 min manatlıq dövlət nömrəsi təxminən 350 min ABŞ dollarına bərabərdir. Bu məbləğ Ermənistanda hərraca çıxarılan bahalı nömrələrin başlanğıc qiymətini dəfələrlə üstələyir. Gürcüstandakı rəsmi tariflərdən onlarla dəfə yüksəkdir. Avropada satılan əksər fərdi nömrələrin qiymətini çox geridə qoyur və yalnız Böyük Britaniyada tarixi və çox nadir nömrələrin rekord hərrac qiymətləri ilə müqayisə oluna bilər.

Azərbaycanda avtomobil nömrələri artıq sadəcə qeydiyyat nişanı deyil. Onlar prestijin, statusun və bəzən investisiyanın göstəricisinə çevrilib. Dünya təcrübəsi göstərir ki, xüsusi nömrələrə maraq hər yerdə var. Lakin Avropa ölkələrinin və Ermənistanda bu bazar dövlət tərəfindən rəsmi hərraclar və şəffaf mexanizmlərlə idarə olunur. Azərbaycanda isə qiymətləri əsasən ikinci bazar müəyyənləşdirir və bu səbəbdən bəzən nömrəsi avtomobilin özündən də bahalı “aktiv”ə çevrilir.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 26 (8875) 8 iyul 2026

**Uşaq və gənclərin fiziki-mənəvi inkişafı**

# Qəbul imtahanlarını "dünyanın sonu" kimi görənlər...

## Günahkar cəmiyyətdir, yoxsa valideynlər?

**Ölkədə qəbul imtahanları ərəfəsində və ondan sonrakı günlərdə hər dəfə eyni hal yaşanır. Abituriyentlərin keçirdikləri stres, bunun davamı olaraq özünü göstərən neqativ hallar mətbuatın və cəmiyyətin müzakirəsinə çevrilir. Hər il minlərlə abituriyent qəbul imtahanına hazırlaşır. Bu proses təkcə bilik deyil, həm də böyük bir psixoloji yük tələb edir. Çoxları üçün bu imtahan həyatı dəyişdirən bir hadisə kimi görünür və təəssüf ki, bu düşüncə abituriyentlərin özünəinamını sarsıdır.**

Azərbaycanda universitetə qəbul olmaq böyük uğur kimi qəbul edilir və abituriyentlər üzərində böyük təzyiq yaradır. Hər kəs tanışları və qohumları arasında imtahan nəticələrini müzakirə edir: "keçən il filankəsin oğlu 650 bal toplamışdı", "qonşunun qızı Tibb Universitetinə qəbul oldu, sən isə..."

Bu kimi müqayisələr abituriyentlərdə əlavə narahatlıq yaradır. Onlar özlərini sanki başqaları ilə yarışda hiss edirlər. Cəmiyyətin gözləntilərinə uyğun olmaq və "uğursuz" adlandırılmamaq üçün çoxları imtahandan əvvəl və sonra ciddi psixoloji təzyiq yaşayır.

Valideynlər övladlarının gələcəyini düşündükləri üçün onların yaxşı universitetə daxil olmasını istəyirlər. Ancaq bəzən bu istək həddindən artıq təzyiqə çevrilir.

Ailələr illərlə övladlarını kurslara, repetitorlara göndərir və onların imtahandan yüksək nəticə göstərməsini gözləyirlər. Bu səbəbdən, uğursuzluq həm də maliyyə itkisi kimi qəbul edilir.

Bəzi valideynlər övladlarının qəbul olmasını öz şəxsi uğurları kimi görürlər. "Mənim övladım ən yaxşı universitetə qəbul olub" demək onlar üçün vacibdir.

Valideynlər bəzən abituriyentə "Sənə bu qədər pul xərcləmişik, qəbul olmalısan" kimi sözlər deyirlər. Bu isə abituriyentlərin onsuz da yüksək olan stresini daha da artırır.

İmtahanda uğursuz olmaq qorxusu abituriyentlərin düşüncələrindən çıxmır. Onlar daim özlərinə sual verirlər: "İmtahanın nəticəsi uğursuz olsa, nə edəcəm?", "Az bal toplasam, valideynlərimə nə cavab verəcəm?", "Dostlarım qəbul olub, mən olmasam?" və s.

Bu qorxu bəzi hallarda o qədər güclü olur ki, abituriyentlər imtahan günü panik atak keçirir, yaddaş problemi yaşayır və özlərini ifadə etməkdə çətinlik çəkirlər. Təəssüf ki, bəzi ailələrdə aşağı bal toplamaq tənqid və ya cəza ilə nəticələnir. Bu isə gənclərin motivasiyasını və özünəinamını tamamilə sarsıda bilər.

Övladınıza hiss etdirməlisiniz ki, nəticədən asılı olmayaraq, siz onun yanındasınız. "Biz səni sevirik və sənin üçün ən yaxşısını istəyirik" kimi sözlər onların özünəinamını artırır. Əks halda, "Sən mütləq qəbul olmalısan, yoxsa camaat nə deyər?" kimi ifadələr gərginliyi artırır və övladınızın motivasiyasını azalda bilər.

Abituriyentlər onsuz da imtahanın nəticələri ilə bağlı narahatdırlar. Valideynlər bu narahatlığı daha da artırmamalıdır. "Əgər qəbul olmasan, gələcəyin məhv olacaq" kimi sözlər uşağınızı depressiyaya sala bilər. Bunun əvəzinə, "Əsas olan sənin xoşbəxt və uğurlu olmağındır" mesajını vermək daha doğrudur.



Əgər uşağınız çox narahatdırsa, ona streslə mübarizə yollarını öyrətmək vacibdir. Meditasiya və nəfəs texnikaları stresin azalmasına kömək edə bilər. Əgər gərginlik çox yüksəkdirsə, peşəkar psixoloq dəstəyi almaq faydalı ola bilər. Əsas olan abituriyentin rahat hiss etməsi və özünə güvənməsidir.

Bəzən abituriyent istədiyi universitetə qəbul ola bilmir. Bu zaman ruhdan düşməyə ehtiyac yoxdur. Universitetə qəbul ola bilməmək həyatın sonu deyil. Xaricdə təhsil almaq üçün müxtəlif imkanlar var. Türkiyə, Avropa və Amerika universitetlərinə qəbul prosesləri düşündüyünüz qədər çətin deyil.

**Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə** Baku TV-yə müsahibəsində bildirib ki, abituriyentlərdə yaranan stresin mənbəyi imtahan yox, cəmiyyət və ailədir. Onun sözlərinə görə, imtahanla bağlı yaranan stresi DİM yaratmır və imtahan özü də təkbaşına bu stresi formalaşdırmır: "Daha çox valideynlərin, ailənin, cəmiyyətin və müəllimlərin gözləntiləri şagirdlərə təsir göstərir. Apardığımız anonim sorğunun nəticələrinə görə, iştirakçıların 60%-dən çoxu bildirir ki, onlarda stressin yaranmasına əsas səbəb valideynlərin gözləntiləridir. Valideynlər çox zaman övladlarından real imkanlarından daha yüksək nəticələr gözləyirlər və bu da əlavə təzyiq yaradır. Ümumilikdə isə hər bir imtahan müəyyən qədər streslidir. Hər yeni situasiya insanda təbii olaraq gərginlik yarada bilər. Biz isə bu stressin səviyyəsini ölçürük, bizim məqsədimiz hər kəs üçün eyni və ədalətli şərait yaratmaqdır".

**DİM sədri vurğulayıb ki, imtahan zamanı şagirdə tapşırıq kitabçası verildikdə, o artıq tamamilə müstəqil olur və heç kimdən asılı olmadan yalnız öz biliklərinə əsaslanaraq cavab verir:** "Şagird özünü idarə etməyi bacarmalıdır, öz vaxtını düzgün bölməyi bacarmalıdır və ona heç kim nəzarət edərək təzyiq göstərə bilməz. Bu, daha stressiz bir mühit yaradır, nəinki kiminsə qarşısında oturub onun suallarına cavab vermək. Müəyyən stress var, bu da təbiidir. Ümumilikdə, hər hansı fəaliyyətin qiymətləndirilməsi, yaxud insanın biliklərinin yoxlanılması özü də stress yaradır. Amma bu stressi idarə etmək insanın vacib bacarıqlarından biridir və bunu yalnız mərkəzləşdirilmiş imtahan sistemi formalaşdıra bilməz".

Mütəxəssislər hesab edir ki, abituriyentlər imtahandan bir neçə gün öncə ciddi hazırlıqları dayandırmalı, imtahan, onun gedişi, nəticəsinin necə olacağı barədə söhbətləri yığışdırmalıdırlar. Abituriyent imtahandan öncəki 1-2 günü ancaq istirahətə və bu zamanadək aldığı biliklərin sistemləşdirilməsinə sərf etməlidir. Bundan əlavə, abituriyent imtahandan öncəki axşam yatmazdan əvvəl müxtəlif sakitləşdirici otlardan çay dəmləyib içməlidir. Bunları qəbul etdikdən sonra o gecəni rahat yatmalıdır və normal yuxu beyni sakitləşdirir. Beyin istirahət etdikdə isə imtahanda insanın toparlanması və köklənməsi asanlaşır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# Keçid balları ilə bağlı açıqlamalar

## Ekspertdən I və IV ixtisas qrupları üzrə ikinci cəhd imtahanlarına hazırlaşan abituriyentlərə tövsiyələr...

**II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarının ikinci cəhdi artıq başa çatıb. İmtahandan sonra abituriyentlər arasında sualların çətinlik səviyyəsi və builki keçid ballarının necə formalaşacağı ilə bağlı müzakirələr başlayıb.**

**Təhsil eksperti Elçin Əfəndi** bildirib ki, Dövlət İmtahan Mərkəzinin keçirdiyi son blok imtahanından sonra aparılan sorğular abituriyentlərin əksəriyyətinin imtahanı əvvəlki mərhələ ilə eyni səviyyədə qiymətləndirdiyini göstərir: "Qeyd edim ki, II və III ixtisas qrupları üzrə blok imtahanının sonuncu mərhələsi keçirildi və biz sorğu apardıq. Abituriyentlərin əksəriyyəti imtahanın birinci cəhdlə eyni səviyyədə olduğunu bildirdilər. Bununla yanaşı, müəyyən qədər tarix fənni ilə bağlı çətinliklərin olduğunu da qeyd etdilər".



**Ekspertin Modern.az-a dediyinə görə, builki müsabiqədə iştirakçı sayının çox olması keçid ballarına təsirsiz ötüşməyəcək:** "Hər iki qrupda iştirakçı sayı kifayət qədər çoxdur və bu, ixtisaslar üzrə formalaşacaq keçid ballarına təsir göstərəcək. Müəyyən dəyişikliklər olacaq. Çünki plan yerlərində ciddi artım yoxdur, yalnız bəzi universitetlərdə, əsasən I və IV qruplar üzrə cüzi artım müşahidə edilir. Abituriyentlərin çoxluğu müsabiqənin gərgin keçəcəyini göstərir və bu da keçid ballarında dəyişikliklər yaradacaq".

**Elçin Əfəndi iyulun 12-də keçiriləcək I və IV ixtisas qrupları üzrə ikinci cəhd imtahanlarına hazırlaşan abituriyentlərə də tövsiyələr verib:** "Ciddi hazırlaşan abituriyentlər nəticələrini yaxşılaşdıra biləcəklər. Yalnız arxayın və məsuliyyətsiz yanaşanlar ballarını itirəcəklər. Qalan müddətdə ilk imtahanda səhv və yol verdikləri mövzuları təkrar etməli, daha çox test tapşırıqları üzərində işləməlidirlər".

**Ekspert bildirib ki, I ixtisas qrupunda müsabiqə yenə də gərgin olacaq:** "Ehtimallarıma görə, I qrupun kimya alt qrupunda keçid balları artacaq. İnformatika alt qrupunda da çox kəskin olmasa da, müəyyən artım gözlənilir. IV qrupda bəzi ixtisaslarda bal enməsi ola bilər. Lakin tibb, stomatologiya, biotexnologiya və psixologiya kimi prestijli ixtisaslarda müəyyən artım mümkündür. Bu isə universitetdən asılı olaraq dəyişəcək. Məsələn, Azərbaycan Tibb Universitetində müəyyən bal artımı ola bilər".

**Təhsil eksperti Ramin Nurəliyev** isə hesab edir ki, II və III qruplar üzrə ikinci cəhd imtahanı ümumilikdə orta çətinlik səviyyəsində olub. Onun sözlərinə görə, abituriyentlər arasında fərqli fikirlər səslənsə də, müəllimlərin ümumi qənaəti imtahanın əvvəlki blok imtahanından ciddi şəkildə fərqlənmədiyini göstərir: "İmtahana girən abituriyentlərin bəziləri sualların çətin, bəziləri isə asan olduğunu deyirlər. Fənlər üzrə də fərqli yanaşmalar var. Müəllimlərin fikrinə əsasən, birinci cəhdlə müqayisədə çox cüzi fərq var. Ümumilikdə imtahan əvvəlki blok imtahanı ilə eyni səviyyədə olub".

**Ekspert bildirib ki, bəzi fənlər üzrə fərqli qiymətləndirmələr aparılıb:** "Bir qədər ədəbiyyat suallarının çətin olduğu qeyd edilir. Azərbaycan dili fənni o qədər də çətin olmayıb. Tarix fənni isə demək olar ki, birinci cəhd imtahanındakı səviyyədə olub. Ümumi təhlillər göstərir ki, II və III ixtisas qrupları üzrə ikinci cəhd blok imtahanı orta səviyyədə keçib".

❑ "Yeni Müsavat"

# Şəmkirin niyə "pullu rayon" olmasının sirri açıldı

## Statistik məlumatlar göstərir ki, rayon bir neçə məhsul növü üzrə liderliyini qoruyur

**Ta qədimdən Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı rayonlar üzrə ciddi fərqlənir. Hər bölgə iqlim və torpaq xüsusiyyətlərinə uyğun olaraq müəyyən məhsullar üzrə ixtisaslaşıb.**

Əgər qədimdən bir bölgə bir məhsulla tanınırdısa, indi məhsul çeşidində ciddi artım müşahidə olunur: meyvələr, tərəvəz, dənli bitkilərin daha çox becərildiyi rayonlar bir deyil, bir neçə məhsulun istehsalında böyük uğur əldə edə bilirlər.

Bu ixtisaslaşma Dövlət Statistika Komitəsinin kənd təsərrüfatı bitkiləri üzrə məhsul istehsalına dair 2026-cı ilin yanvar-may aylarını əhatə edən bülletenində də aydın görünür. Belə ki, statistik məlumatlar göstərir ki, bəzi rayonlar eyni vaxtda bir neçə məhsul növü üzrə ölkənin əsas istehsal mərkəzləri statusunu qoruyur.

Statistikaya əsasən, Şəmkir rayonu ölkənin ən güclü aqrar rayonlarından biri olaraq qalır. Rayon yanvar-may aylarında kartof istehsalında 52 min 811 ton, tərəvəz istehsalında isə 129 min 584 ton məhsulla liderlər sırasındadır. Bundan əlavə, Şəmkirdə 2 min 399 ton meyvə yığılması da rayonun meyvəçilik sahəsində mühüm mövqeyini təsdiqləyir.

Qarabağ iqtisadi rayonunun əsas aqrar mərkəzlərindən olan Bərdə də yüksək göstəriciləri ilə diqqət çəkir. Rayon 81 min tondan yuxarı tərəvəz istehsalında ölkənin aparıcı rayonlarından biri olmaqla yanaşı, dənli və dənli-paxlalı bitkilərin ilk yığımında 13 min 84 ton nəticə göstərərək lider mövqeyini qoruyub. Bərdə meyvə istehsalında da 592 ton məhsulla ilk sıralarda yer alır.

Faraş kartof istehsalında öncüllük cənub bölgəsindədir. Burada Cəlilabad rayonunda mayın sonunadək 3190 hektar sahədə 61 255 ton faraş kartof yığılıb. Faraş və yazlıq kartofun vətəni sayılan Qərb bölgəsində Şəmkirdən sonra Goranboyda 1 174 ton, Tovuzda 1 120 ton, Ağdamda 896 ton, Füzulidə 595 ton, Tərtərdə isə 505 ton faraş kartof yığılıb. Əkin sahələrinin genişliyinə görə isə Gədəbəy kartofçuluğun əsas mərkəzlərindən biri olaraq qalır.

Cəlilabad Azərbaycanın digər ən böyük kənd təsərrüfatı istehsalçılarından biridir. Bu rayon kartof istehsalından əlavə, payızlıq və yazlıq dənli, dənli-paxlalı bitkilərin ən çox becərildiyi rayondur. Bu il 79 min hektara yaxın sahədə belə bitkilər əkilib. Bundan əlavə, beş ayda Cəlilabadda 20 785 ton meyvə və giləmeyvə yığılıb.

Ümumilikdə meyvə və giləmeyvə istehsalında Lənkəran-Astara iqtisadi rayonu birinci yerdədir - ölkə üzrə toplanmış 53 987 ton məhsulun 25 638 tonu bu bölgənin payına düşür. İkinci yerdə gələn Mərkəzi Aran iqtisadi rayonunda 12 350 ton meyvə-giləmeyvə toplanıb.

Üçüncü yerdə gələn Qazax-Tovuz iqtisadi rayonu ümumilikdə 4 min 316 ton məhsulla ön sıralardadır. Burada əsas pay Şəmkir (2 399 ton) və Tovuzun (1 892 ton) üzərinə düşür.

Qarabağ iqtisadi rayonunda isə ümumilikdə 2 min 800 ton meyvə yığılıb. Bu göstəricidə Tərtər (1 261 ton), Ağcabədi (848 ton) və Bərdə (592 ton) əsas paya malik rayonlardır.

Dənli və dənli-paxlalı bitkilərin ilk yığımında da Qarabağ iqtisadi rayonu liderdir. Yanvar-may aylarında burada 16 min 433 ton məhsul əldə olunub. Rayonlar üzrə isə Bərdə, Füzuli (3 min 349 ton), Goranboy (1 min 174 ton) və Şamaxı (1 min 34 ton) yüksək nəticələri ilə seçiliblər.

Ölkədə yaşıl çay istehsalı isə ənənəvi olaraq cənub bölgəsində cəmləşib. Hesabat dövründə ölkə üzrə 556 ton yaşıl çay yarpağı yığılıb və bunun əsas hissəsi Lənkəran-Astara iqtisadi rayonunun payına düşüb.

Göyçay, Ağdam meyvə-tərəvəz istehsalında böyük nailiyyətlər əldə edib.

Kənd təsərrüfatı göstəriciləri istehsal prosesində müasir texnologiyalardan uğurla istifadə edən rayonların daha böyük nailiyyətlər əldə etdiklərini ortaya qoyur: Şəmkir və Cəlilabad istixana təsərrüfatlarının yüksək inkişafı sayəsində əksər məhsullar üzrə yüksək istehsal göstəriciləri əldə ediblər. Ağdam, Bərdə, Göyçay, Şəki kimi rayonlar münbit torpaqlar, əlverişli iqlim, suvarma şərtləri ilə açıq torpaqlarda yüksək istehsala nail olurlar.

Rayonların kənd təsərrüfatı məhsulları istehsalı üzrə ixtisaslaşması dövlətin ayırdığı subsidiya mexanizmləri ilə də dəstəklənir. Belə ki, Aqrara Subsidiya Şurası müxtəlif məhsulların müəyyən rayonlarda istehsalına subsidiya ayırır. Məsələn, Naxçıvanda və işğaldan azad edilmiş ərazilərdə orta və yüksək dağlıq ərazilərdə salınan intensiv meyvə və üzüm bağlarına digər yerlərdən daha yüksək əkin subsidiyası ödənilir.

İşğaldan azad olunmuş ərazilərdə yaşayan sakinlər birillik bitkilər və yonca əkinlərinə digər regionlardan 50 faiz daha yuxarı dövlət dəstəyi alacaqlar.

Şuranın qərarına əsasən fındıq bitkisi üzrə tətbiq edilən əkin əmsalı Ağdam, Ağdaş, Ağstafa, Ağsu, Balakən, Cəbrayıl, Lerik, İsmayıllı, Zaqatala, Zəngilan, Xaçmaz, Xocalı, Xocavənd, Qax, Qəbələ, Quba, Qubadlı, Oğuz, Qusar, Qazax, Tərtər, Tovuz, Şabran, Şamaxı, Şəki, Şəmkir, Yardımlı və Zəngilan rayonlarına şamil edilir.

Limon, kinkan, naringi, portağal və kivi üzrə əkin subsidiyası Astara, Lənkəran və Masallı rayonlarına, habelə Lerik rayonunun dəniz səviyyəsindən 300 metrdən az olan ərazilərdə əkildikdə ödənilir.

Şaftalı (nektarin) və alma bağları üzrə istehsal potensialı hədəflənən həcmə yaxınlaşması nəzərə alınaraq 2026-cı ildən sonrakı dövrdə bu meyvə bağlarının yalnız işğaldan azad edilmiş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında salınmasının dəstəklənməsi planlaşdırılır.

Pambıq üzrə məhsul əmsalı Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Biləsuvar, Goranboy, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Tərtər, Yevlax, Zərdab rayonlarına, habelə Cəlilabad rayonun Günəşli və Təzəkənd kəndlərinə və Ucar rayonunun Xələc kəndinə şamil edilir.

Tütün üzrə məhsul əmsalı Ağstafa, Balakən, Gədəbəy, Goranboy, İsmayıllı, Lerik, Masallı, Oğuz, Qax, Qazax, Qəbələ, Qubadlı, Şəki, Tovuz, Yardımlı, Zaqatala və Zəngilan rayonlarına şamil edilir.

Beləliklə, dövlətin də dəstəyi ilə bir sıra rayonların müəyyən növ məhsulların istehsalında ixtisaslaşması dərinləşir. Eyni zamanda Şəmkir, Cəlilabad rayonlarının timsalında innovativ metodların, müasir istehsal texnologiyalarının tətbiqinin yüksək istehsal səviyyəsinin əldə olunmasındakı həlledici rolu getdikcə daha aydın hiss olunur.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**




# Müəllimlər dövlət qulluqçusu statusu ala bilər

## Bu status onlara sabit əməkhaqqı, sosial təminat, staja görə artımlar təqdim edə bilər



**Dünyanın bir sıra ölkələrində müəllim və həkimlər dövlət qulluqçusu statusuna malikdirlər. Bu yanaşma həmin peşə sahiblərinə əməkhaqqı, sosial təminat, pensiya və karyera inkişafı baxımından əlavə təminatlar yaradır. Azərbaycanda da zaman-zaman bu modelin tətbiqi ilə bağlı müzakirələr aparılır. Mütəxəssislər hesab edir ki, belə bir qərar təhsil və səhiyyə sistemində həm idarəetmə mexanizmlərinə, həm də xidmət keyfiyyətinə təsir göstərə bilər. Bununla yanaşı, dövlət büdcəsinə əlavə yük, işə qəbul qaydaları və fəaliyyətin qiymətləndirilməsi kimi məsələlər də diqqət mərkəzindədir.**

Mövzu ilə bağlı Modern.az-a açıqlama verən **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin digər üzvü Müşfiq Cəfərov** bildirib ki, müəllim və həkimlər cəmiyyətin intellektual təhlükəsizlik sisteminin əsas dayaqlarıdır.

Deputatın sözlərinə görə, Azərbaycanda müəllim və həkimlərə dövlət qulluqçusu statusunun verilməsi ilə bağlı hazırlıq işləri hələ 2010-cu illərdə aparılıb. Həmin dövrdə bu peşə sahiblərinin dövlət qulluğunun xüsusi növünə aid edilməsi nəzərdə tutulsa da, məsələnin mürəkkəbliyi səbəbindən sistem tam formalaşdırılmayıb: "Müəllim və həkimlərin dövlət qulluqçusu hesab olunması və ya bu kateqoriyaya daxil edilməsi kifayət qədər mürəkkəb məsələ olduğundan sistem tam qurula bilmədi".

Deputat qeyd edib ki, dövlət qulluqçusu statusu müəllimlərə sabit əməkhaqqı, sosial təminat, staja görə artımlar, dövlət təminatlı sosial sığorta və hüquqi müdafiə mexanizmləri təqdim edir.

"Hazırda tətbiq olunan müəllimlərin işə qəbulu sistemi müəyyən üstünlüklərə malikdir. Lakin bu mexanizm müəllimin fəaliyyətini dövlət xidməti standartları əsasında qiymətləndirmir", - deputat vurğulayıb.

**O bildirib ki, dünya təcrübəsində bu sahədə uğurlu nümunələr mövcuddur:** "Finlandiyada müəllimlər dövlət tərəfindən seçilən yüksək ixtisaslı kadrlardır və dövlət qulluqçusu ilə eyni statusda sosial təminat imkanlarına malikdirlər. Hətta iş saatı 18-24 dərs saatı olsa da, maaş sabitdir. Hesab edirəm ki, Azərbaycanda hansısa peşə qrupuna dövlət qulluqçusuna yaxın status veriləcəksə, ilk növbədə müəllimlər və həkimlərə şamil edilməlidir".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov** bildirib ki, inkişaf etmiş ölkələrdə dövlət qulluqçusu anlayışına fərqli yanaşmalar mövcuddur.

Onun sözlərinə görə, bəzi ölkələrdə sosial təminat və pensiya sistemi ayrıca mexanizmlərlə tənzimlənir, müəyyən peşə qrupları üçün əlavə güzəştlər tətbiq olunur. Bu imtiyazlar bəzi hallarda daha erkən pensiyaya çıxmağa da imkan yaradır. Deputat qeyd edib ki, postsovet məkanında dövlət qulluqçusu statusu daha çox idarəetmə və hökumət strukturlarında çalışan şəxslərə şamil edilir.

V.Bayramov əlavə edib ki, hazırda Azərbaycanda təhsil və səhiyyə sahələrində aparılan islahatların əsas istiqamətlərindən biri əməkhaqlarının fəaliyyət nəticələrinə uyğun formalaşdırılmasıdır.

"Sertifikasiya nəticələrinin qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsini təklif edirik. Məqsəd yüksək nəticə göstərən müəllimlərin daha yüksək əməkhaqqı almasını təmin etməkdir. Bu baxımdan sertifikasiyada yüksək bal toplayan müəllimlər üçün əməkhaqqı artımlarının genişləndirilməsi məqsədəuyğun hesab olunur. Mövcud qaydalara əsasən 51 bal və daha çox nəticə göstərən müəllimlərin əməkhaqlarında daha yüksək artımlar qeydə alınır, biz təklif edirik ki, 48 bal və daha yüksək nəticə göstərən müəllimlər üçün də yüksək əməkhaqqı tətbiq olunsun", - deputat bildirib.

Onun sözlərinə görə, nəticəyönümlü yanaşma müəllimlərin peşəkar inkişafını stimullaşdırmaqla yanaşı, onların sosial təminatının daha da yaxşılaşdırılmasına xidmət edə bilər.

V.Bayramov hesab edir ki, bu mexanizmin növbəti illərdə daha da təkmilləşdirilməsi məqsədəuyğundur.

# YENİ MÜSAVAT

Son səhifə

N 26 (8875) 8 iyul 2026

İyul


## Bunları bilirsinizmi?

* Qarğalar qarışqaları əzib bədənlərinə sürtməklə parazitləri özlərindən uzaqlaşdırırlar.
* ABŞ-də prezident olmaq üçün əhalinin 27%-nin səsini toplamaq kifayətdir.
* Kentukki dağlarında mavi dərili insanlar yaşayır.
* Onlayn sifariş verilən ilk şeylərdən biri pizza idi.
* Stephen Hawkings cəngavər olmaqdan imtina etmişdi.
* Çində yaşayan monqolların sayı Monqolustanda yaşayan monqolların sayından çoxdur.
* Əsir çitalar çox vaxt itlərlə yaşayır, çünki itlər onları sakitləşdirir.
* Samuray olan ilk əcnəbi Afrika quludur.
* Salvador Dali Disney üçün cizgi filmləri yaradıb.
* "Taxtların Oyunu"ndan sonra Arya ABŞ-da ən sürətlə böyüyən körpə adı olub.
*Yaponiyaya qızılbalıq suşi gətirən Norveç idi.
* Yellowstone altındakı vulkanik sistem 11 Böyük Kanyonu doldura bilər.
* Disneydə çoxları "The Lion King"in uğur qazanmayacağını düşünürdü. Bununla belə, hazırda ən çox gəlir əldə edən əllə çəkilmiş filmdir.
* Stubbs adlı pişik 15 ildir Alyaskanın Talkitna şəhərinin meridir

# Dalay Lama 130 il yaşayacağına inanır



**Dalay Lama XIV Tenzin Gyatso 91-ci doğum günündə 130 ilədək yaşaya biləcəyini açıqlayıb. O, bu barədə Hindistanın Ladaq bölgəsində tərəfdarları qarşısında çıxışı zamanı danışıb. Mərasimin canlı yayımı Dalay Lamanın rəsmi saytında yayımlanıb.**

"Artıq 91 yaşım var. Yuxularımı nəzərə alsaq, yüz yaşdan çox yaşayacağam. Bəlkə də, təxminən 130 il yaşayaram", - deyə Dalay Lama bildirib. O, həyatdakı əsas məqsədinin dünyadakı bütün canlılara fayda vermək olduğunu vurğulayıb.

Qeyd edək ki, Dalay Lama XIV 1935-ci il iyulun 6-da Tibetin Takcer kəndində anadan olub. İki yaşında olarkən əvvəlki Dalay Lamanın reinkarnasiyası kimi tanınıb. Hazırda onun iqamətgahı Hindistanın Dharamşala şəhərində yerləşir. O, 1989-cu ildə Nobel Sülh Mükafatına layiq görülüb.

## Nepalda dəhşət: qatil fil 14 ildir bir ailəni təqib edir



**Nepalda qatil fil 14 il ərzində bir ailəni təqib edib.**

Oxu.Az xəbər verir ki, bu barədə "Kathmandu Post" nəşri yazıb.

Nepal sakini Şaniçara Bote bildirib ki, 2012-ci ildə "Dhurbe" ləqəbli vəhşi fil onun valideynlərini tapdalayaraq öldürüb. Daha sonra ailə evlərini sataraq başqa əraziyə köçüb və ümid edib ki, bir daha heç vaxt təhlükəli heyvanla qarşılaşmayacaq. Lakin 14 il sonra elə eyni fil yenidən onların həyatında peyda olub.

5 iyul gecəsi "Dhurbe" ailənin Çitvan Milli Parkının yaxınlığındakı Caqatpur rayonunda yerləşən yeni evinə soxulub. Filin hücumu zamanı Şaniçaranın 25 yaşlı gəlini Aşika Bote və 4 yaşlı oğlan nəvəsi Bharat həlak olublar.

Şaniçaranın sözlərinə görə, ailə bu dəfə bir neçə çayı keçərək yeni əraziyə köçüb və hesab edib ki, bu, onları vəhşi heyvanların hücumlarından qoruyacaq. Lakin fil yenidən onların evini tapıb. Çitvan Milli Parkı administrasiyasının məlumatına görə, "Dhurbe" ilk dəfə 2010-cu ildə insanlara hücum etməyə başlayıb. Bu müddət ərzində o, parkı qoruyan iki hərbçi də daxil olmaqla, azı 25 nəfərin ölümünə səbəb olub.

İlk ölümcül hücumlardan sonra hakimiyyət orqanları onun məhv edilməsi üzrə genişmiqyaslı əməliyyat da təşkil ediblər, lakin yaralı heyvan qaçmağı bacarıb. Daha sonra hərəkətlərini izləmək və sakinləri təhlükə barədə xəbərdar etmək üçün ona bir neçə dəfə peyk boyunbağıları taxılıb.

Yerli sakinlər Rapti çayı üzərindəki körpünü bağlayıblar. Onlar park administrasiyasını ittiham ediblər ki, "Dhurbe"ni daim izləmələrinə baxmayaraq, növbəti hücumun qarşısını almağı bacarmayıblar.

## Ağrılı xatirələrin emosional və fiziki sağlamlığa təsiri

**Ağrılı xatirələrə daim qayıtmaq yalnız emosional vəziyyətə deyil, həm də fiziki sağlamlığa mənfi təsir göstərə bilər.**

Oxu.Az xəbər verir ki, bu barədə "İzvestiya" nəşrinə həkim-psixoterapevt, tibb elmləri namizədi İrina Kraşkina danışıb.

Mütəxəssisin sözlərinə görə, xatirələr insanın həyatında mühüm rol oynayır: onlar keçmişlə əlaqəni qorumağa, təcrübədən nəticə çıxarmağa və şəxsiyyəti formalaşdırmağa kömək edir. Lakin bəzi hallarda köhnə hadisələr beynimizi həddindən artıq məşğul edir. İnsan etdiyi yanlışlıqlara, mübahisələrə və ya itkilərə təkrar-təkrar qayıdır, olanları anlamağa və ya zehni olaraq hadisələrin sonluğunu dəyişməyə cəhd göstərir.

"Bu cür yanaşma insan beyninin yarımçıq qalmış prosesləri tamamlamağa çalışması kimi xüsusiyyəti ilə bağlıdır. Xatirələri davamlı olaraq beyində fırlatmaq təşvişi çoxaltdığı kimi, əhvalı da korlayır və insanın işinə, dərslərinə və ya gündəlik qayğılarına fokuslanma bacarığını zəiflədir", - deyə Kraşkina qeyd edib.

Uzunsürən emosional yüklənmə fiziki sağlamlığa da mənfi təsir edir. Xroniki stres yuxu rejimini pozur, iştahasızlıq, yuxusuzluq, halsızlıq, əzələ və baş ağrıları, habelə psixoloji tükənmə ilə nəticələnə bilər.

Psixoterapevt bu neqativ dövrdən qurtulmaq üçün diqqəti yavaş-yavaş keçmişdən bu günə yönəltməyi məsləhət görür:

**Fərqindəlik məşqləri və idman:** İdmanla məşğul olmaq və meditasiya kimi vərdişlər beyni sakitləşdirir.

**Gündəlik tutmaq:** Düşüncələri yazıya köçürmək rahatlamağa kömək edir.

**Reallıq testi:** "Hazırda bu vəziyyəti dəyişdirmək imkanım varmı?" sualını verin. Cavab "xeyr" olarsa, enerjinizi yalnız idarə edə biləcəyiniz məsələlərə yönəldin.

**Bağışlamaq:** Bağışlamaq, baş verənlərə haqq qazandırmaq deyil, keçmişin bugünkü həyatınıza təsir etməsinə mane olmaq üçün verilən daxili qərardır.

Ekspert həmçinin müasir həyatı keçmişin "gözəl dövrləri" ilə müqayisə etməkdən çəkinməyi tövsiyə edir. O vurğulayır ki, beyin keçmişi çox vaxt qüsursuzlaşdırır. Bunun qarşısını almaq üçün gündəlik kiçik xoşbəxtliklərə, yeni məqsədlərə və əzizlərlə keçirilən vaxta fokuslanmaq lazımdır. Əgər şəxsi səylər nəticə vermirsə və depressiya, kəskin narahatlıq kimi hallar yaranırsa, mütləq peşəkar psixoterapevt dəstəyi almaq vacibdir.

## Süni intellektlə ifrat ünsiyyət şizofreniyaya səbəb ola bilər - psixoloqdan xəbərdarlıq



**Real insanlarla dialoq qurmaq əvəzinə süni intellektlə davamlı əlaqədə olmaq insan psixikasına mənfi təsir göstərərək, gizli psixoloji problemlərin üzə çıxmasına şərait yaradır.**

Oxu.Az xəbər verir ki, bu barədə psixoloq Andrey Zberovski "Abzas" nəşrinə açıqlamasında bildirib.

Mütəxəssis qeyd edib ki, buradakı əsas təhlükə fərdin cəmiyyət içərisində təbii ünsiyyət vərdişlərini yavaş-yavaş itirməsidir. Virtual həmsöhbətlə ünsiyyət qurmaq olduqca asandır: o, canlı insanlardan fərqli olaraq mübahisəyə girmir, reaksiyanı anında verir və istifadəçinin tələblərinə tam uyğunlaşır. Nəticə etibarilə bu cür rəqəmsal ünsiyyət forması güclü asılılığa gətirib çıxara bilər.

Psixoloq bildirib ki, tamamilə sağlam görünən şəxslərdə belə, özlərinin fərqində olmadığı gizli psixi xəstəliklər əmələ gələ bilər. Kəsintisiz informasiya seli və süni intellektlə davamlı təmas bu cür gizli problemlərin, o cümlədən nevroz, depressiya və hətta daha ciddi pozuntuların aktivləşməsinə zəmin yaradır.

Mütəxəssis eyni zamanda paranoyya yaranma ehtimalı barədə də xəbərdarlıq edib: şəxsdə elektron alətlərin və ya ətrafdakıların onu davamlı izlədiyi hissi yarana bilər. Bu səbəbdən neyron şəbəkələrə yalnız qədərində müraciət etmək vacibdir. Xüsusən də mənəvi dəyərlər və fərdi münasibətlər mövzusunda onları heç bir halda real ünsiyyətin alternativi kimi istifadə etmək olmaz.

## Avropadakı kəskin istilər çinli tələbələri hərəkətə keçirdi



**Avropada davam edən anomal istilər fonunda Çin vətəndaşları yaxınlarına və dostlarına poçt vasitəsilə portativ kondisionerlər göndərməyə başlayıblar.**

Oxu.Az "Toutiao"ya istinadən xəbər verir ki, bu, Avropada kondisioner çatışmazlığı və yüksək qiymətlərlə bağlı yaranan vəziyyətdən irəli gəlir.

Çendu şəhərindən olan bir tələbə Böyük Britaniyada təhsil alan sevgilisinin istidən gecələr yata bilmədiyini nəzərə alaraq, ona portativ kondisioner göndərib. Cihazın özünün qiyməti təxminən 1 000 yuan (129 avro) olsa da, Avropaya çatdırılma xərci 2 000 yuan (257 avro) təşkil edib. Tələbə qeyd edib ki, kirayə mənzillərdə adətən split sistemlərin quraşdırılmasına icazə verilmədiyi üçün portativ modellər yeganə çıxış yoludur.

Oxşar vəziyyət Fransada da müşahidə olunur. Parisdə işləyən çinli tələbə bildirib ki, gündüzlər temperatur 40 dərəcəni keçir, gecələr isə 30 dərəcədən aşağı düşmür. O, əvvəlcə dondurulmuş su şüşələri və spreylərlə sərinləməyə çalışsa da, bu üsullar effekt verməyib. Kondisioner almaq istədikdə isə bazarda əksər modellərin artıq satıldığı məlum olub.

Bəzi tələbələr logistika xərclərini azaltmaq üçün birgə sifarişlərə üstünlük verirlər. Belə ki, Çin satış platformalarının birində 399 avrodan yuxarı sifarişlərə 100 avro endirim kampaniyasından yararlanmaq üçün istifadəçilər sosial şəbəkələrdə alış-veriş etmək üçün "şərik" axtarırlar.

Logistika şirkətləri də Avropaya kondisioner daşınmasında kəskin artım olduğunu təsdiqləyirlər. Ən çox sifariş Almaniya, Fransa və Böyük Britaniyaya göndərilir. Daşıyıcıların sözlərinə görə, əsasən portativ kondisionerlərə tələbat çoxdur, çünki bu cihazların quraşdırılması üçün xarici blok tələb olunmur və tələbələr təhsillərini başa vurduqdan sonra onları asanlıqla yenidən sata bilirlər.

**Səhifəni hazırladı: SELCAN**


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.